## Bakıya 200 yeni avtobus gətirilir



**Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) tərəfindən sərnişindaşıma xidmətinin keyfiyyətinin artırılması istiqamətində işlər davam etdirilir.**

Hazırda paytaxtda müntəzəm marşrut xətlərində 2200-dən çox avtobus istifadə olunur.

AYNA-dan verilən məlumata görə, cari ilin avqust-sentyabr ayları ərzində Bakı şəhərində daşıyıcılar tərəfindən daha 200 yeni və ekoloji təmiz avtobus sərnişinlərin istifadəsinə veriləcək.

"Bu, ümumilikdə ictimai nəqliyyatda əlçatanlığın və xidmət keyfiyyətinin daha da artmasını təmin edəcək", - deyə AYNA-nın yaydığı məlumatda bildirilir.



## Milli Qəhrəman Natiq Qasımovun anası dəfn olunub

**Milli Qəhrəman Natiq Qasımovun anası Dursun Qasımova ilə vida mərasimi keçirilir.**

Gəncə şəhərində keçirilən mərasimdə şəhər İcra Hakimiyyətinin rəhbərliyi, ictimaiyyət nümandələri iştirak edirlər. Dursun Qasımova Gəncədəki Səbiskar qəbiristanlığında torpağa tapşırılıb.(apa)

*Qeyd edək ki, 1942-ci il təvəllüdlü Dursun Qasımova ötən gün Gəncədə vəfat edib.*


№ 131 (6372) 2025-ci il

Qiyməti 50 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 29 iyul 2025-ci il (çərşənbə axşamı)




## DTX şəbəkə təşkilatçılarını saxlayıb

### Onlar imtahanlarda texniki fırıldaqçılıqla məşğul olub

**Ali məktəblərə qəbul imtahanlarında müsbət nəticə əldə etmək məqsədilə bir sıra abituriyentləri xüsusi gizli texniki avadanlıqlar komplekti (mikroqulaqcıq, mikrokamera, mini telefon, naqil, Mi-Fi routeri və s.) ilə təchiz edən şəbəkə ifşa olunub.**

Onlar Dövlət İmtahan Mərkəzinin müraciəti əsasında Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən görülmüş tədbirlərlə müəyyənləşdirilərək saxlanılıblar və barələrində DTX-də cinayət işi başlanılıb.

Bu barədə Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz özünün sosial şəbəkə hesabında paylaşım edib.

*Qeyd edilir ki, göstərilən məsələ bəzi abituriyentlərin nəticələrinin ləğv olunması ilə nəticələnib.*



## Azərbaycanın bir sıra dövlət xadimləri adından saxta açıqlamalar yayılıb

**Bəzi sosial şəbəkə hesablarında Azərbaycan Respublikasının bir sıra dövlət xadimləri adından "deep fake" texnologiyası ilə hazırlanmış, reallığı əks etdirməyən açıqlamalar yayılıb.**

Bu barədə "Şərq"ə Medianın İnkişafı Agentliyindən məlumat verilib.

"Müəyyən dairələr tərəfindən süni intellektin köməyi ilə hazırlanan və informasiya mühitində yayılan silsilə xarakterli saxta videogörüntülər ictimai rəyi çaşdırmağa yönələn kobud manipulyasiya nümunəsidir.

Cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi informasiyaya inanmağa, dövlətin rəsmi mövqeyini ifadə edən məlumatları ölkənin informasiya agentlikləri və digər peşəkar media subyektlərindən əldə etməyə çağırırıq.

Azərbaycan vətəndaşlarını, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların, "deep fake" texnologiyaları ilə məzmunyaratma tendensiyasının vüsət aldığı bir şəraitdə sayıq olmağa səsləyirik", - məlumatda qeyd olunub.

# Son 12 gün qaldı

## "Gözləməyə ehtiyac yoxdur" deyə Tramp Putinə sərt xəbərdarlıq edib



**ABŞ Prezidenti Donald Tramp, Rusiyanın Ukraynadakı müharibəni dayandırması üçün verdiyi 50 günlük müddəti 12 günə endirdiyini açıqlayaraq, "Çox məyus oldum" deyib. "Şərq" xəbər verir ki, ABŞ Prezidenti Donald Tramp, Şotlandiyanın Turnberri şəhərindəki özünə məxsus qolf kompleksində Böyük Britaniyanın Baş naziri Keir Starmeri qəbul edərkən jurnalistlərə mühüm açıqlamalar verib.**

Tramp, Rusiya-Ukrayna müharibəsi ilə bağlı sərt mesaj verərək bildirib:

"Putin məni çox məyus etdi. Ukraynadakı müharibəni bitirməsi üçün verdiyim 50 günlük vaxtı 12 günə endirəcəyəm. Gözləməyə ehtiyac yoxdur".

Bundan əlavə, o deyib:

"Əgər mən olmasaydım, bu gün dünyada altı fərqli müharibə başlamışdı".

Trampın gündəmində Qəzza müharibəsi də yer alıb. O, keçən həftə uğursuz nəticələnən atəşkəs və girov mübadiləsi danışıqlarından sonra İsrailin Baş naziri Benyamin Netanyahu ilə telefon danışığı apardığını bildirib və əlavə edib:

"Hamas ilə mübarizə çətindir".

Tramp, "Qəzzadakı insanlar hazırda ərzağa və təhlükəsizliyə ehtiyac duyurlar" deyərək, televiziyada izlədiyi görüntülərin onu çox təsirləndirdiyini vurğulayıb:

"Uşaqlar çox ac görünür. Dərhal qidaya çatmaları lazımdır".

Digər tərəfdən Tramp qeyd edib ki, müharibə artıq "fərqli şəkildə" davam etdirilməlidir və bu barədə Netanyahunu açıq şəkildə məlumatlandırıb. Qəzza ilə bağlı planları olduğunu da bildirən ABŞ Prezidenti, İsrailə verilən yardımları xatırladaraq deyib:

(səh.3)



## Ərdoğan nikbindir

### Qanlı müharibəyə nöqtə qoyulacaq

**"Rusiya-Ukrayna müzakirələrindən sonra sülh masası da Türkiyədə qurulacaq".**

Türkiyə mətbuatı xəbər verir ki, bunu Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan hökumətin iclasından sonra deyib.

O, çıxışında diqqəti ölkəsinin həyata keçirdiyi diplomatik missiyaya yönəldib:

"Rusiya-Ukrayna müharibəsinin ilk günündən sülhpərvər siyasət həyata keçirmişik. Müzakirə masası İstanbulda qurulduğu kimi sülh masası da Türkiyədə qurulacaq və bu qanlı müharibəyə nöqtə qoyulacaq".

Türkiyə lideri bu prosesin ölkəsinin beynəlxalq arenadakı vasitəçilik rolunu gücləndirəcəyini də söyləyib.




## Artıq gecdir

### İran prosesin qarşısını ala bilməyəcək

**İranın ali rəhbəri Əli Xameneinin beynəlxalq məsələlər üzrə müşaviri Əli Əkbər Vilayəti Zəngəzur dəhlizi layihəsi ilə bağlı sərt mövqe bildirib.**

Vilayəti bu layihəni "İranın milli birliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş bir təhdid" kimi qiymətləndirib. Vilayətinin cəfəng sözlərinə görə, "düşmənlər" iqtisadi inkişaf bəhanəsi ilə bölgədə öz planlarını həyata keçirmək istəyirlər.

(səh.5)

# Qaynar su, kəsilmiş qulaq, sındırılmış barmaq

### Məhkəmə Ermənistanın insanlıq əleyhinə cinayətlərini araşdırır



**Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində yaralanmış, əsirlikdə və girovluqda işgəncələrə məruz qalmış, mina qurbanı olmuş şəxslər məhkəmədə ifadə veriblər**

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyulun 28-də davam etdirilib.

(səh.3)



## Arif Babayevin vəziyyəti ağır stabil olaraq qalır

**Xalq artisti Arif Babayevin vəziyyəti ağır stabil olaraq qalır.**

Bu barədə Mərkəzi Klinikanın Baş həkimi Prof. Dr. Kamran Musayev məlumat verib.

O bildirib ki, xəstənin müalicəsi Reanimasiya və intensiv terapiya şöbəsində davam etdirilir.(apa)

Qeyd edək ki, 23.07.2025-ci il tarixində saat 17:30 radələrində Xalq artisti Arif Babayev kəskin tənəffüs çatışmazlığı diaqnozu ilə Qax Rayon Mərkəzi Xəstəxanasına hospitalizasiya olunub. Bildirilib ki, pasiyent dərhal intubasiya olunaraq süni tənəffüs dəstəyilə təmin olunub. O, dünən axşam saatlarında təcili tibbi yardım maşını ilə Qax Rayon Mərkəzi Xəstəxanasından Bakıya - Mərkəzi Klinik Xəstəxanaya təxliyə olunub.

# Sülh üçün zaman daralır

## Azərbaycan artıq gözləmək istəmir



### Gələn il sülh sazişi ölkə liderləri tərəfindən imzalana bilər

**Məlum olduğu kimi Azərbaycan və Ermənistan arasında saziş layihəsinin paraflanması ideyası irəli sürülüb. Sülh sazişi adətən tərəflər arasında aparılan diplomatik danışıqlar nəticəsində hazırlanır.**

Bu mərhələdə tərəflər arasında mübahisələrin detallarına dair müddəalar, qarşılıqlı öhdəliklər, sərhədlər, təhlükəsizlik zəmanətləri və digər vacib şərtlər ekspert qrupları və danışıqlar heyətləri tərəfindən müzakirə olunur. Mətnin ilkin layihəsi razılaşdırıldıqdan sonra texniki və hüquqi baxımdan yoxlanılır. Azərbaycanla Ermənistan bu mərhələni artıq yekunlaşdırıb. Mətn üzərində razılıq əldə edildikdən sonra tərəflərin rəsmi nümayəndələri sənədi paraflayır. Paraflanma sənədin hər səhifəsinin və ya son səhifəsinin baş hərflərlə imzalanmasıdır. Bu proses sazişin mətni üzərində razılığın əldə edildiyini, lakin sənədin hələ rəsmi şəkildə qüvvəyə minmədiyini göstərir. Bu mərhələ siyasi razılaşmanın simvolik təsdiqidir və əksər hallarda imzalanma mərhələsinə hazırlıq sayılır. Prezident İlham Əliyev də Xankəndidəki Media Forumunda məsələ ilə bağlı dedi ki, "mətn paraflana bilər və Azərbaycan tərəfi artıq bu təkliflə çıxış edib". Tərəflər bütün mübahisəli məsələləri həll etdikdən sonra saziş layihəsi imzalanacaq. Onu da qeyd edək ki, Azərbaycan iki şərtin yerinə yetirilməsindən sonra sazişi imzalamağa hazır olduğunu bəyan edib.

**"Alyans" Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Abutalıb Səmədov deyib ki, Ermənistan istənilən şəkildə Azərbaycanla sülh sazişinin imzalanmasını istəyir. Ekspert vurğulayıb ki, İrəvan hökuməti bu cür davranışları son dövrlərdə dəfələrlə nümayiş etdirib:**

"Ancaq məsələ ondadır ki, İrəvan sülh istəsə də, sülh sazişinin imzalanmasına mane olan məqamları aradan qaldırmaq gücündə deyil. Söhbət ilk növbədə Ermənistanda Konstitusiyanın dəyişdirilməsindən və yeni Konstitusiyanın qəbul edilməsindən gedir. Parlament seçkilərinədək Ermənistan hökuməti bu addımı atmağa cəsarət etmir. İmza atılacaq hansısa sənədin seçkilərin nəticəsini mənfi təsir göstərəcəyindən ehtiyatlanır. Bu səbəbdən Konstitusiyanın 2026-cı ilin ikinci yarısından sonra qəbul oluna biləcəyini söyləyir. Bu da Azərbaycanı qane etmir. Biz uzun zaman gözləmək fikrində deyilik. Ancaq Əbu-Dabi görüşündən sonra açıq şəkildə deyildi ki, sülh sazişini imzalamaq mümkün olmasa da, onu paraflamaq mümkündür. Yəni ilkin imzalama mərasimi təşkil oluna bilər".

**A.Səmədov diqqətə çatdırıb ki, səlahiyyətli nümayəndə sülh sazişini paraflaya bilər:**

"Gələn il də sülh sazişi ölkə liderləri tərəfindən imzalana bilər. Paraflanmaq deyiləndə səlahiyyətli nümayəndənin sazişin hər səhifəsini təsdiq etməsi nəzərdə tutulur. Bundan sonra həmin sənədə hansısa dəyişiklik edilə bilməz. Düşünürəm ki, yaxın zamanlarda belə bir addımın atılması mümkündür. Bu barədə ABŞ Prezidenti D.Tramp da bəyanat verdi. O da dedi ki, yaxın vaxtlarda Ermənistan və Azərbaycan arasında sülh istiqamətində mühüm addımlar atıla bilər. Mümkündür ki, paraflanma mərasimində ABŞ-nin yüksək rütbəli məmurları da iştirak edə bilər. Hətta bu mərasim ABŞ-də də baş tuta bilər. Əgər ABŞ və Ermənistan Azərbaycan hakimiyyətini qane edəcək təminatlar irəli sürərsə və bu təminatlar bütün narahatlıqları aradan qaldırarsa, bəlkə də, Konstitusiyanın dəyişdirilməsinə qədər də müəyyən addımlar atıla bilər".

**İsmayıl**




# Putinin enerji mühasirəsi dağıldı

## Bakı Kiyevə təkcə qaz yox, mesaj da verir

**"Ukraynanın ilk dəfə Azərbaycan qazını Transbalkan marşrutu ilə qəbul etməsi iki ölkə arasında enerji əməkdaşlığını yeni mərhələyə keçirib. Ukrayna üçün Azərbaycan qazını əldə etmək bir neçə səbəbdən vacibdir".**

Bu sözləri "Şərq"ə açıqlamasında "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq  Elxan Şahinoğlu deyib.

**Politoloqun sözlərinə görə, bu, müharibə nəticəsində Rusiya qazından tamamilə imtina edən Ukrayna üçün Azərbaycan qazı hesabına enerji təhlükəsizliyinin təminatında əhəmiyyətli rol oynayacaq:**

**Azərbaycan qazı Ukraynanı döyüşdə saxladı**

"Həmçinin, bu Kiyevlə Bakı arasında siyasi əlaqələrin daha da gücləndirilməsi deməkdir.

Ukraynanın dövlət enerji şirkəti olan "Naftogaz Group" SOCAR-ın Ukraynadakı törəmə qurumu "SOCAR Energy Ukraine" ilə Azərbaycan təbii qazının alınması barədə ilk müqaviləni imzalayıb. Bu razılaşma çərçivəsində sınaq partiyası qaz Bolqarıstan və Rumıniya üzərindən Ukraynaya çatdırılıb. Azərbaycan qazının Ukraynaya nəqli Kremli narahat edib. Çünki, Kreml Ukraynanı hərtərəfli məğlub etmək üçün bu ölkəni enerji resurslarına çıxışdan da məhrum etmək istəyirdi. Alınmadı. Ukrayna həm Avropa ölkələrindən, həm də Avropa üzərindən Azərbaycan qazını əldə etmək imkanı qazanıb. Vaxtilə Rusiya qazı üçün nəzərdə tutulan Transbalkan marşrutundan ilk dəfə Azərbaycan qazı ilə nəql edilməyə başlanılıb. Azərbaycan qazının Ukraynaya nəqli Qərb ölkələrinin də maraqlarına cavab verir. Azərbaycan Ukraynaya qaz nəql etməklə ABŞ və Avropa ölkələrinin Ukraynanın Rusiya qarşısında məğlub olmamaq siyasətində praktik addımıyla yer almış olub. Bu Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunun artmasına, eyni zamanda ABŞ və Avropada "Qarabağ ermənilərinə dəstək" adıyla ölkəmiz əleyhinə müxtəlif sənədlər qəbul etməyə çalışan siyasi dairələrin təxribatçı fəaliyyətlərinin qarşısının alınmasına xidmət etməlidir.  Prezident İlham Əliyevin ukraynalı jurnalistin sualına cavab olaraq "işğalla barışmayın" söyləməsi ABŞ və Avropa ölkələrinin nəşrlərində geniş işıqlandırıldı. Bu Azərbaycanın və ümumilikdə Cənubi Qafqazın Rusiyanın siyasətindən narazılığının təcəssümü idi. İlham Əliyevin ardınca, Mərkəzi Asiya ölkələrinin liderlərinin də Rusiya ilə münasibətlərdə ölkələrinin milli və təhlükəsizlik maraqlarını ön plana çıxaracaqları ehtimal edilir".

**E. Şahinoğlunun sözlərinə görə, rəsmi Kiyev Rusiya ilə müxtəlif formalarda əməkdaşlıq edən şirkətlərə qarşı tədbirlər görməyə başlayıb. Ukrayna Prezidentinin imzaladığı fərmana görə, Rusiya ilə yanaşı Çin, Birləşmiş Ərəb Əmirlikləri və İrana hüquqi şəxslərə qarşı sanksiyalar tətbiq edilib:**

" Ukrayna bu sanksiyaları Avropa İttifaqının 18-ci sanksiya paketi ilə uyğunlaşdırıb. Ukraynanın Sanksiyalar üzrə səlahiyyətli nümayəndəsi Vladislav Vlasyukun sözlərinə görə, sanksiyalar Rusiya, Çin, BƏƏ, İran və digər ölkələrin kölgə donanması, ikili təyinatlı malların sanksiyalardan yayınaraq tədarükü və Rusiya hərbi-sənaye kompleksi ilə əlaqəsi olduğu şirkətləri əhatə edir. Kiyev nadir torpaq elementləri və nadir metalların hasilatı, emalı və tədarükü ilə bağlı şirkət və şəxslərə qarşı da sanksiyalar tətbiq edib. Pekin Kiyevin qərarına etiraz edib. ÇinXariciİşlərNazirliyiininsözçüsüQoTsyankunUkraynanınsanksiyaqərarınınyanlışolduğunuvəKiyevinbusiyasətinikorrektəetməsivacibliyinibildirib.Çinli diplomat BMT TəhlükəsizlikŞurasınıntəsdiqinitapmayansanksiyalarındoğruolmadığınıvurğulayıb.Pekininnarahatlığıaydındır.ABŞ Prezidenti Donald Tramp RusiyayaUkraynamüharibəsinidayandırmaq üçün 50 günvaxtveribvəbununtəxminənikihəftəsigeridəqalmaqüzrədir. ABŞ KonqresiRusiyadanneftalanölkələrəqarşısərtsanksiyalartətbiqihaqqındaqanunlayihəsihazırlayır. RusiyadanənçoxneftalanölkəÇindir. KiyevVaşinqtondanəvvəlÇinşirkətlərinəqarşısanksiyatətbiqinielanetməkləVaşinqtonunqərarındangeriçəkilməməsininişarəsiniverib.Pekinidəənçoxnarahatedənbudur".

**Şəymən**




# Paşinyanın əsas hədəfi hakimiyyətini qorumaqdır

## Baş nazir bunun üçün Zəngəzur dəhlizini bir il yubadacaq

**Zəngəzur dəhlizi ətrafında müzakirələr son günlərdə yenidən intensivləşib. Xüsusən, dəhlizə nəzarətin ABŞ-yə məxsus özəl şirkətə həvalə edilməsi ilə bağlı iddialar regional ölkələrin reaksiyalarına səbəb olub. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Zəngəzur dəhlizinin Ermənistan və Azərbaycanın suveren məsələsi olduğunu bəyan edib. Aydın məsələdir ki, prosesin bu cür cərəyan etməsi heç də Moskvanın marağına cavab vermir.**

Rusiya dəhlizin Bakı, İrəvan və Moskva arasında üçtərəfli müqaviləyə əsasən realizə olunmasında israrlıdır. Ermənistan isə uzun müddətdir imza atdığı bu sənədin işıq üzü görməsinə imkan verməməyə çalışır. Prezidentin köməkçisi Hikmət Hacıyev də ABŞ şirkətinin Zəngəzur dəhlizi layihəsində roluna dair yayılan xəbərlərə münasibət bildirib. H.Hacıyev deyib ki, bu, Ermənistanın qərar verəcəyi məsələdir. O vurğulayıb ki, əgər ABŞ şirkətləri ilə işləyirlərsə, bu, onların işidir: "Biz isə öz üzərimizə düşəni edirik. Gürcüstan, İran və Rusiya ilə nəqliyyat əlaqələrimizi gücləndiririk. Bu layihələr bütün bölgəyə fayda verəcək. Əgər Ermənistan istəsə, biz trans-Qafqaz dəhlizi üzərində birgə işləməyə hazırıq".

**Türkiyənin nəqliyyat və infrastuktur naziri Abdulkadir Uraloğlu deyib ki, Ankara Zəngəzur dəhlizi ilə bağlı məsələyə töhfə verməyə çalışır. O bildirib ki, Azərbaycan və Ermənistan bu məsələ ətrafında lazımi müzakirələri davam etdirir:**

"Güman edirəm ki, bu məsələ çox uzun çəkmədən həllini tapacaq. Beləliklə,Türk dünyasına daha qısa yol açılacaq". Nazir söyləyib ki, nəqliyyat dəhlizləri Türkiyə üçün vacibdir: "Azərbaycan həm quru, həm də dəmiryolu ilə bağlı işlərini davam etdirir. Biz də Qars-İğdır-Naxçıvan xətti ilə bağlı işlərə bu il başlayırıq". Özbəkistan Nəqliyyat Nazirliyinin hesabatında da deyilib ki, Zəngəzur dəhlizinin açılması onun marşrutu boyunca yerləşən ölkələrə xeyli fayda verəcək. O bildirib ki, dəhliz Azərbaycandan Türkiyəyə marşrutu qısaltmağa imkan verir: "Mövcud Bakı-Tbilisi -Qars marşrutu çərçivəsində yük qatarları Gürcüstan ərazisindən təxminən 250 km məsafə qət edir. Yeni marşrut xeyli qısaldılıb. Azərbaycanla sərhəd Ağbənd kəndinə gedən yolların tikintisi başa çatdıqdan sonra Azərbaycanla Türkiyə arasında məsafə 343 kilometr qısalacaq. Bu, vaxta və maliyyə xərclərinə qənaətə gətirib çıxaracaq, həmçinin Gürcüstandan keçən marşrutla müqayisədə malların çatdırılma müddətini təxminən bir gün azaldacaq".

Bakı Politoloqlar Klubunun rəhbəri, siyasi elmlər namizədi Zaur Məmmədov "Şərq"ə deyib ki, Paşinyanın Rusiyaya səfəri, Baş nazir M.Mişustinlə görüşü, 2026-cı ildə keçiriləcək seçkiöncəsi Ermənistanda baş verənlər göstərir ki, Paşinyan öz hakimiyyətini qorumaq üçün Zəngəzur dəhlizinin açılmasını ən azından 1 il müddətinə yubadacaq. Ekspertin sözlərinə görə, Bakı ABŞ və Ermənistan arasında dəhlizlə bağlı müzakirələri fəlakət kimi qəbul etmir. Çünki söhbət məhz İrəvanla Vaşinqton arasındakı razılaşmadan gedir: "Bu məsələ İrəvan, Vaşintqon və Bakı arasında müzakirə predmeti deyil. Zəngəzur dəhlizinin Ermənistandan keçəcək 42 kilometr hissəsi indiki Ermənistan Respublikasının ərazisi sayılır. Ona görə də kimin ermənilərə dirijor olması, kurasiya etməsi, erməni tərəfində nəyəsə nəzarət funksiyası birbaşa İrəvan hökumətinin məsuliyyətindədir. Azərbaycan heç zaman qonşuların milli maraqlarına cavab verməyəcək addımlar atmayıb. Öz milli maraqlarımızı həyata keçirməklə bərabər hər zaman xarici siyasətdə çalışmışıq ki, qonşuların sərhədlərini aşacaq məqamlarla bağlı qərarlar olmasın. Bunun nəticəsidir ki, Azərbaycan Qoşulmama Hərəkatının üzvüdür. Bakı beynəlxalq siyasi-hərbi təşkilatların regiondakı varlıqları ilə bağlı tamamilə rasional addımlar atır".

**Z.Məmmədov qeyd edib ki, Paşinyan dividend qazanmağa çalışır:**

"Şübhə yox ki, dəhlizlə bağlı Ermənistan və ABŞ rəhbərliyinin nümayəndələri arasında müəyyən razılaşma olub. Əgər razılaşma olmasaydı, Donald Tramp tərəfindən Azərbaycan-Ermənistan sülh prosesi ilə bağlı tvitlərin şahidi olmazdıq. Tramp administrasiyasının sülhə bağlı bəyanatı yayılmazdı. Deməli, bağlı qapılar arxasında, hələ Əbu-Dabi görüşünədək İrəvan hökuməti Vaşinqtonla müəyyən anlaşmalara gedib. Bu razılaşma da Zəngəzur dəhlizi ilə bağlı olub. Reallıq odur ki, Azərbaycan tərəfi sülh və dəhliz məsələsində tam səmimidir və reallaşdırmağa hazırdır. Əfsuslar ki, Ermənistan hələ də vaxtı uzadır və özünü rasional aparmır. Belə davam edərsə, Ermənistan dəhliz məsələsində yenə də özünü təcrid edəcək. Növbəti dəfə kommunikasiya xəttindən kənarda qalacaq. Azərbaycanın onsuz da Avropa ilə əsas ticarət yolu Gürcüstan üzərindəndir. Dünənədək Zəngəzur dəhlizi yox idi, amma Azərbaycan öz maraqlarını həyata keçirirdi. Bundan sonra da elə olacaq. Ancaq inanıram ki, gec-tez dəhliz açılacaq. Əsas məqam dəhlizin hansı yollarla açılmasıdır. Bir yandan Ermənistan rəhbərliyinin üçtərəfli bəyanatda öhdəliyi var, digər tərəfdən Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında əlaqəni pozmağa Ermənistanın nə tarixi, nə də siyasi haqqı var. Bəzi qüvvələr, o cümlədən Rusiya Zəngəzur dəhlizinin açılmasına qarşıdırsa, başa düşməlidirlər ki, bu məsələdə gec-tez Azərbaycan və Ermənistan razılığa gələ bilərlər. Belə olan təqdirdə etiraz edən dövlətlər prosesdən kənarda qalacaqlar".

**İsmayıl Qocayev**

# Fransa regionda sülhün bərqərar olmasında maraqlı deyil

## Makron hakimiyyəti Azərbaycana qarşı məqsədyönlü anti-təbliğat kampaniyasını davam etdirir



**Fransa son dövrlərdə Cənubi Qafqazda fəallığını artırmağa çalışır. Xüsusilə Ermənistanla yaxın münasibətlər quraraq regiondakı proseslərə təsir göstərmək istəyir. Fransa Milli Assambleyasında antiazərbaycan yönümlü qəbul edilən qətnamə də bu fikirləri təsdiq edir.**

Bu yanaşma Azərbaycanın maraqlarına qarşı yönəlmiş addımlar kimi qiymətləndirilir. Fransa bölgədə öz nüfuzunu artırmaq və geosiyasi təsir dairəsini genişləndirmək məqsədilə birtərəfli və qərəzli mövqe nümayiş etdirir. Onun balanslaşdırılmamış mövqeyi həm Azərbaycanla münasibətlərin gərginləşməsinə, həm də Ermənistanın regiondan təcrid olunmasına səbəb olur.

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə açıqlamasında  qətnamənin və Fransanın mövqeyinin sülh prosesinə mənfi təsir etdiyi barədə danışıb:**

"Ermənistanla Fransa arasında bu kimi əlaqələr çoxdan mövcuddur. Fransa çalışır ki, Cənubi Qafqazda mövqeyini gücləndirsin və antiazərbaycan təbliğatını daha da dərinləşdirsin. Fransa Milli Assambleyasında qəbul olunan qərəzli qətnamə də guya "erməni məhbuslarla" bağlıdır, lakin əslində sülh prosesinə ciddi şəkildə zərbə vurmağa hesablanıb. Nə qədər ki, Fransa Ermənistanla strateji müttəfiqdir, bu münasibətlərdən ən böyük zərəri elə Ermənistanın özü görəcək".

**Ekpert Baş nazir Nikol Paşinyanın heç vaxt Azərbaycanda olan ermənilər haqqında hər hansısa şərh vermədiyini söyləyib. Buna baxmayaraq Fransa Assambleyasında bu məsələlərin təhrif olunmuş şəkildə gündəmə gətirildiyinə diqqət çəkib:**

"Fransa regionda sülhün bərqərar olmasında maraqlı deyil. Azərbaycana qarşı məqsədyönlü anti-təbliğat kampaniyasını davam etdirir. Onların bu siyasi oyunları heç bir müsbət nəticə verməyəcək.  Azərbaycan Kaledoniyaya ciddi dəstək nümayiş etdirdi. Bakı Təşəbbüs Qrupu da bu mövqedə Fransaya qarşı birgə dayanışma sərgilədi. Fransa rəhbərliyi bu məsələdən ciddi narahatlıq keçirir. Məhz bu səbəbdən Azərbaycana qarşı müxtəlif siyasi təzyiq üsullarını işə salmaqla tədbir görməyə çalışır".

**Banuçiçək Kalbalıyeva**



# Rusiya sona qədər öz bəxtini sınayacaq

## Baş verənlər Rusiyanın özünü sübut etməsi və yenidən öz hökmranlığını Bakıya qəbul etdirmək cəhdləridir

**Rusiya və Azərbaycan münasibətlərində gərginlik davam edir. Ötən ilin dekabrında AZAL-ın təyyarəsinin Qroznıda vurulmasından sonra Azərbaycanla Rusiya arasında münasibətlər gərginləşib. İyunun sonunda Yekaterinburqda azərbaycanlıların Rusiya hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən amansızlıqla qətlə yetirilməsi, ardınca Bakıda müxtəlif cinayətlərdə şübhəli bilinən Rusiya vətəndaşlarının həbsi iki ölkə arasında münasibətlərin daha da kəskinləşməsinə səbəb olub.**

Prezident İlham Əliyev III Qlobal Media Forumunda çıxışı zamanı Azərbaycan-Rusiya münasibətlərinə toxunaraq baş verənlər barədə fikirlərini ifadə edib. Dövlət başçısı xüsusilə AZAL-a məxsus sərnişin təyyarəsinin Rusiya ərazisində atəşə tutulması faktını xatırladaraq bildirib ki, hadisədən 7 ay keçməsinə baxmayaraq, Rusiya tərəfi bu məsələ ilə bağlı hələ də Azərbaycana rəsmi açıqlama təqdim etməyib: ”Biz nə baş verdiyini bilirik və bunu sübutlarla təsdiqləyirik. Rusiya rəsmilərinin də bu hadisədən xəbərdar olduqlarına əminik. Bizim tələbimiz haqlıdır - təyyarəyə hücum edənlər cəzalandırılmalı, qurbanların ailələrinə və AZAL-a təzminat ödənilməlidir”. Rusiya tərəfi isə nə qədər qəribə də olsa, iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində ilk addımı Azərbaycandan gözləyir. Rəsmi Moskva Rusiya XİN-in sözçüsü Mariya Zaxarovanın dili ilə ”Sputnik Azərbaycan”ın Bakıda həbs olunan işçilərinin sərbəst buraxılmasını tələb edir. Lakin ikili münasibətlərdə gərginliyi məhz Rusiya tərəfi öz yanlış addımları ilə bu həddə çatdırıb. Buna baxmayaraq, Moskva gərginliyin aradan qalxması istiqamətində praktiki olaraq heç bir addım atmır.

**Ağ Partiyanın sədri Tural Abbaslı ”Şərq”ə deyib ki, son aylarda Rusiya ilə Azərbaycan arasında ”əsəb müharibəsi” gedir. Partiya rəhbəri bildirib ki, Moskva və Bakı arasındakı savaş psixolojidir:**

”Düzdür, bu qarşıdurmanın real nəticələri ilə də üzləşirik. Rusiyada yaşayan azərbaycanlılara, iş adamlarına, miqrantlara qarşı təzyiqlər edilir. Hətta uzun illərdir Rusiya vətəndaşı olan Azərbaycan əsilli insanların vətəndaşlığı ləğv olunur. Rusiya Azərbaycandan idxal edilən kənd təsərrüfatı məhsullarına da problemlər yaradır. Azərbaycan da haqlı olaraq güzgü effekti ilə adekvat addımlar atır, tədbirlər görür. Baş verənlər Rusiyanın özünü sübut etməsi və yenidən öz hökmranlığını Bakıya qəbul etdirmək cəhdləridir. Yəni açıq-aşkar basqı və təzyiq siyasətidir. Moskva yaxşı bilirdi ki, Qarabağ kartı əllərindən çıxandan sonra Azərbaycana təzyiq imkanları qalmayacaq. Azərbaycan artıq Qarabağ buxovundan xilas olub və tam sərbəst, müstəqil siyasət yürüdür. Bundan narahatlıq duyan Rusiya Azərbaycana qarşı yeni təzyiq rıçaqları tapmağa, Bakını ram etməyə çalışır. Yəni üzləşdiyimiz təzyiqlərin səbəbi məhz Bakının müstəqil xarici siyasət yürütməsi ilə bağlıdır”.

**T.Abbaslı Rusiya və Azərbaycan gərginliyinin uzun müddət davam edəcəyini, problemin dərinləşəcəyini düşünmür:**

”Lakin Rusiya sona qədər öz bəxtini sınayacaq, təzyiqlərini davam etdirəcək. Moskvanın ilk növbədə azərbaycanlı miqrantları sıxışdırması təsadüfi deyil. Məqsəd ondan ibarətdir ki, azərbaycanlı miqrantların Azərbaycandakı ailələri də hökumətə narazılıq etsinlər, Bakını geri çəkilməyə məcbur qoysunlar və s. Azərbaycan heç kimin qarşısında boyun əymək fikrində deyil. Partiya sədri kimi düşünürəm ki, Azərbaycan iqtidarının Rusiya ilə bağlı siyasəti, yürütdüyü xətt tamamilə doğrudur. Əgər bu gün Rusiyaya qarşı dirənməsək, sabah İran və digər ölkələr də eyni variantlara əl atacaqlar. Ümumən isə hesab edirəm ki, məhz Moskvanın geri addım atması ilə iki ölkə arasında gərginlik səngiyəcək”.

**İsmayıl Qocayev**

# Son 12 gün qaldı

## “Gözləməyə ehtiyac yoxdur” deyə Tramp Putinə sərt xəbərdarlıq edib



**ABŞ Prezidenti Donald Tramp, Rusiyanın Ukraynadakı müharibəni dayandırması üçün verdiyi 50 günlük müddəti 12 günə endirdiyini açıqlayaraq, ”Çox məyus oldum” deyib.**

”Şərq” xəbər verir ki, ABŞ Prezidenti Donald Tramp, Şotlandiyanın Turnberri şəhərindəki özünə məxsus qolf kompleksində Böyük Britaniyanın Baş naziri Keir Starmeri qəbul edərkən jurnalistlərə mühüm açıqlamalar verib.

**Tramp, Rusiya-Ukrayna müharibəsi ilə bağlı sərt mesaj verərək bildirib:**

”Putin məni çox məyus etdi. Ukraynadakı müharibəni bitirməsi üçün verdiyim 50 günlük vaxtı 12 günə endirəcəyəm. Gözləməyə ehtiyac yoxdur”.

**Bundan əlavə, o deyib:**

”Əgər mən olmasaydım, bu gün dünyada altı fərqli müharibə başlamışdı”.

Trampın gündəmində Qəzza müharibəsi də yer alıb. O, keçən həftə uğursuz nəticələnən atəşkəs və girov mübadiləsi danışıqlarından sonra İsrailin Baş naziri Benyamin Netanyahu ilə telefon danışığı apardığını bildirib və əlavə edib:

”Hamas ilə mübarizə çətindir”.

**Tramp, ”Qəzzadakı insanlar hazırda ərzağa və təhlükəsizliyə ehtiyac duyurlar” deyərək, televiziyada izlədiyi görüntülərin onu çox təsirləndirdiyini vurğulayıb:**

”Uşaqlar çox ac görünür. Dərhal qidaya çatmaları lazımdır”.

**Digər tərəfdən Tramp qeyd edib ki, müharibə artıq ”fərqli şəkildə” davam etdirilməlidir və bu barədə Netanyahunu açıq şəkildə məlumatlandırıb. Qəzza ilə bağlı planları olduğunu da bildirən ABŞ Prezidenti, İsrailə verilən yardımları xatırladaraq deyib:**

”Çox pul verdik, heç kim təşəkkür etmədi”.

İranın nüvə obyektlərini ABŞ-ın sıradan çıxardığını xatırladan Tramp, ”İran pis siqnallar göndərir. Belə davam etsə, cavab verəcəyik - bu, yaxşı bir şey deyil. İran Haması yönləndirir” deyə bildirib.

Tramp 14 iyulda verdiyi açıqlamada bildirmişdi ki, Rusiya 50 gün ərzində Ukrayna ilə razılığa gələ bilməsə, ABŞ tərəfindən tətbiq olunan vergilər 100 faiz artırılacaq.

# Qaynar su, kəsilmiş qulaq, sındırılmış barmaq

## Məhkəmə Ermənistanın insanlıq əleyhinə cinayətlərini araşdırır

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyulun 28-də davam etdirilib.**

”Şərq” xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub. İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər. Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib. Zərərçəkmiş şəxs Tahir Mahmudov ifadəsində 2021-ci il iyulun 21-də Xocalı rayonunda mina partlaması nəticəsində ağır xəsarət aldığını bildirib. O, hadisə zamanı ərazidə şirkətlərdən birinin əməkdaşı qismində mühafizəçi vəzifəsində işləyirmiş.

Cümşüd Qəhrəmanov ifadəsində yaşadığı Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi zamanı mütəmadi olaraq Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə tutulduğunu bildirib. 2020-ci il oktyabrın 1-də mərmilərdən biri onun həyətinə düşüb. Nəticədə evinə zərər dəyib, heyvanları tələf olub. O, dövlət ittihamçısı Fuad Musayevin suallarına cavabında kəndin atəşə tutulması zamanı digər evlərə də zərər dəydiyini, kənd sakini Hilal Həziyevin yaralandığını deyib.

Zərərçəkmiş şəxs Hilal Həziyev ifadəsində C.Qəhrəmanovun dediklərini təsdiqləyərək 2020-ci il sentyabrın 28-də Cocuq Mərcanlı kəndində üz nahiyəsindən qəlpə xəsarəti aldığını söyləyib.

Güloğlan Mirzəliyev ifadəsində 2021-ci ilin fevral ayında Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində minaya düşərək xəsarət aldığını bildirib. ”Topuğum üç yerdən sındı”, - deyə o əlavə edib.



**Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində yaralanmış, əsirlikdə və girovluqda işgəncələrə məruz qalmış, mina qurbanı olmuş şəxslər məhkəmədə ifadə veriblər**

Ramil Fərhadov ifadəsində Vətən müharibəsi zamanı Cocuq Mərcanlı kəndində yaşadığı evə mərmi düşdüyünü söyləyib. Zərərçəkmiş bildirib ki, Cocuq Mərcanlı kəndində Azərbaycan Ordusunun heç bir silahlı birləşməsi olmayıb, kənddən Ermənistan silahlı qüvvələrinə qarşı atəş açılmayıb.

Elnur Əmiraslanov ifadəsində 2018-ci ildə Tərtərdə hərbi xidmətdə olarkən Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində güllə yarası aldığını deyib.

Mirhəsən Hüseynov ifadəsində Vətən müharibəsi zamanı oktyabrın 26-da Laçın istiqamətində artilleriya atəşi nəticəsində qəlpə yarası aldığını bildirib. O, dövlət ittihamçısı Təranə Məmmədovanın suallarına cavabında bildirib ki, hadisə zamanı təxminən 15 nəfər azərbaycanlı yaralanıb.

Aqşin Hüseynov ifadəsində 1992-ci il iyunun 8-də Qazax rayonunun Qızılhacılı kəndində döyüşlər zamanı qarşı tərəfdən atılmış minaatan mərmisinin partlaması nəticəsində yaralandığını bildirib. O, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarına cavabında hadisə zamanı daha iki nəfərin yaralandığını, Tahir Yunisovun isə şəhid olduğunu söyləyib.

Kamil Hüseynov ifadəsində Vətən müharibəsi zamanı - 2020-ci il sentyabrın 28-də Tərtərin Çaylı kəndi istiqamətində güllə yarası aldığını bildirib. O, Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavabında qarşı tərəfin həmin vaxt minaatanlardan, avtomat və pulemyotlardan atəş açdığını söyləyib.

Pərviz Nəcəfov ifadəsində 2022-ci il oktyabrın 8-də Ağdamda yolda şirkət əməkdaşı qismində çalışan zaman piyadaəleyhinə minaya düşərək xəsarət aldığını bildirib. Bəxtiyar Məmmədov 1993-cü ilin may ayında Ağdam rayonunun Qalayçılar kəndində əsir götürüldüyünü söyləyib. O, əsirlikdə üç il saxlanılıb. Zərərçəkmiş şəxs dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında əsirlik zamanı Şuşada, Xankəndidə və digər ərazilərdə saxlanıldığını bildirib. Əsirlik müddətində, həmçinin qəddar və qeyri-insani rəftara, müxtəlif işgəncələrə məruz qalıb. Sabir Haqverdiyev, İdyal Allahverdiyev, Murad Bənnayev, Özal İsmayılov, Ramin Əfəndiyev, Orxan Salıfov, Ağasif Həmidov, Hüseyn Cavadov, Pərviz Həsənov ifadələrində 2020-ci ildə baş vermiş Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin açdığı atəşlər nəticəsində yaralandıqlarını bildiriblər.

Zərərçəkmiş şəxs Amin Musayev ifadəsində 2020-ci ildə Vətən müharibəsi zamanı güllə yarası aldığını, yaralı vəziyyətdə Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü, əsirlik müddətində hər gün işgəncələrə məruz qaldığını bildirib.

O, noyabrın 8-də Şuşa və Xankəndi şəhərləri arasındakı ərazidə yaralandığını, noyabrın 11-də əsir götürüldüyünü deyib. Əsir götürülən vaxt ona qarşı nalayiq ifadələr işlədilib. A.Musayev onlara cavab verən zaman avtomatın qundağı ilə alın hissəsindən vurulub və avtomobilə mindirilib. Maşında döyülməsi nəticəsində huşunu itirib. Sonradan İrəvana aparıldığını öyrənib.

”Ayağım yaralı idi. Əsirlik zamanı gəlib ayağımı təmizləyəndə bilərəkdən biz vasitəsilə ağrını artırır, bununla da işgəncə verirdilər. Halbuki oraya tibbi şlanq - drenaj qoyulmalı idi ki, çirk axsın. Onu etmirdilər. Çirk ayağımın içində qala-qala zorla, ağrılı şəkildə bizlə təmizləyirdilər. Səsim çıxdıqca daha çox zorakılıq göstərirdilər. Hətta boynuma qədər üzərimə qaynar su tökürdülər”, - deyə A.Musayev qeyd edib.

O, dekabrın 14-də Azərbaycana təhvil verilib.

Təqsirləndirilən şəxs David Babayan A.Musayevə sual verərək onun noyabrın 8-dən 11-dək olan müddətdə döyüş yoldaşları tərəfindən nə üçün aparılmamasını soruşub. A.Musayev sualı belə cavablandırıb: ”Döyüş yoldaşlarım şəhid olmuşdu. Yaralandığım vaxt huşumu itirmişdim. Sağ qalan döyüş yoldaşlarım elə biliblər ki, şəhid olmuşam. Müharibə vaxtı şəhidləri və yaralıları dərhal çıxartmaq olmur”. O, D.Babayanın digər sualına cavabında isə deyib ki, Ermənistanda əsirlikdə saxlanıldığı müddətdə sağlamlığını itirib.

Xəyal Məmmədov 2022-ci il sentyabrın 12-də Xocavənddə Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin açdığı atəş nəticəsində yaralandığını bildirib.

Emin Quşçiyev ifadəsində 2023-cü il mayın 10-da Kəlbəcərdə Ermənistandan açılmış atəş nəticəsində yaralandığını söyləyib.

Bəkir Kərimov 1992-ci il martın 24-də Ağstafa rayonunda alma bağında işlədiyi zaman girov götürüldüyünü söyləyib. Həmin vaxt onunla birlikdə daha beş nəfər azərbaycanlı girov götürülüb. Əvvəlcə Berd rayonuna, sonra isə İrəvan şəhərinə aparılıblar. Onlar döyülüb, söyülüb, işgəncələrə məruz qalıblar.

Həsən Həsənov ifadəsində B.Kərimovla birlikdə girov götürüldüyünü, bir həftə sonra girovluqdan azad olunduğunu söyləyib.

Məhəmməd Bayramov ifadəsində B.Kərimov və H.Həsənovla birlikdə girov götürüldüyünü söyləyib. Bildirib ki, girovluqda olduğu vaxt Ermənistan hərbçisi qulağının bir hissəsini bıçaqla kəsərək qoparıb.

Sahib Bağırov ifadəsində 1995-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü bildirib. Əsirlikdə döyülüb, işgəncələrə məruz qalıb, yeddi dişi, barmağının iki dırnağı çıxarılıb. Bir ildən sonra isə Azərbaycan tərəfinə qaytarılıb.

Mülki şəxslər - Fuad Qurbanlı, Elnur Zülfüqarov, Qurban Qurbanov, İlham Əhmədov, Samir Qasımov, Fəqan Mustafayev, Nicat Baxışov ifadələrində Vətən müharibəsi zamanı oktyabrın 28-də Ermənistan silahlı qüvvələrinin Bərdə rayonuna raket atması nəticəsində yaralandıqlarını deyiblər.

Əlyar Ocaqverdiyev iki dəfə - 2020-ci il dekabrın 13-də və 2021-ci il yanvarın 13-də mina partlaması nəticəsində xəsarət aldığını bildirib. O, yol idarəsinin əməkdaşı qismində yol tikintisi ilə məşğul olurdu.

Ağa Səfərəliyev 1993-cü ildə, Faiq Namazov 1992-ci ildə Azərbaycanın suveren əraziləri uğrunda gedən döyüşlər zamanı düşmən tərəfdən atılan atəşlər nəticəsində xəsarət aldıqlarını söyləyiblər.

Seymur Məmmədov Vətən müharibəsi zamanı sentyabrın 28-də Ermənistan silahlı qüvvələrinin açdığı artilleriya atəşi nəticəsində yaralandığını söyləyib. Hadisə zamanı yanında olan Xaliq və Elşən Abbasov qardaşları həlak olub, Faiq Mahmudov isə yaralanıb.

Əsəd Rüstəmov ifadəsində 2016-cı il martın 19-da Tərtər rayonunun Qapanlı kəndində mülki şəxs qismində avtomobillə gedərkən Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində güllə yarası aldığını söyləyib.

Zərərçəkmiş şəxslər - Sabir Lətifov Xocavənd, Oruc Rüstəmov Cəbrayıl, Təzəgül Həmzəyeva Zəngilan, Sarı Baxışov Kəlbəcər rayonundan məcburi köçkün düşdüklərini, evlərinin, mülklərinin həmin vaxt Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərdə qaldığını bildiriblər.

Zərərçəkmişlər, həmçinin təqsirləndirilən şəxslərin, onların müdafiəçilərinin və özlərinin nümayəndələrinin suallarını da cavablandırıblar.

Məhkəmə prosesi iyulun 31-də davam etdiriləcək.





# Məqsədimiz bir yol açmaqdır

## Türkiyə ilə Azərbaycan jurnalistləri ortaq media təması yaradır

**Türkiyə Jurnalistlər (Qazeteciler) Cəmiyyətinin nümayəndə heyəti Azərbaycana səfərləri çərçivəsində "Şərq"in qonağı olublar. Qonaqları "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı qarşılayıb.**

Redaksiyamıza təşrif buyuran heyətin arasında - Qəzetçilər Cəmiyyətinin sədr müavinləri Mustafa Yoldaş və Ali Oruc, maliyyə katibi Əli Topçu, idarə heyətinin üzvü Zeynəb Gürcanlı Ürektürk, nəzarət heyətinin üzvü Figen Balcı, üzvlər Yıldıray Arslan, Korhan Ön, layihə əməkdaşı Nursu Yıldız və "Yeniçağ" Media Qrupun rəhbəri Aqil Ələsgər olub. Səfər məqsədlərindən danışan Qəzetçilər Cəmiyyətinin sədr müavin Ali Oruc zaman-zaman bu cür səfərlər həyata keçirdiklərini deyib. Bildirib ki, Azərbaycana gəlişlərində məqsəd buradakı məsləkdaşları ilə görüşmək, tanış olmaq, fikir mübadiləsi aparmaqdır: "Azərbaycan hazırda Ermənistanla sülh danışıqları aparır. Bir çox siyasi məsələlər müzakirə predmetidir. Biz də daha dolğun və dəqiq informasiyaları yerində öyrənmək, gedən prosesi müşahidə etmək məqsədilə Bakıya gəldik. Artıq bir sıra görüşlər keçirmişik. Sabah da təmaslarımız olacaq. Məqsədimiz bir yol açmaqdır. Bura səfər edən məsləkdaşlarımızın demək olar ki, hamısı öncələri Bakıda müəyyən vəzifələrdə çalışıblar. Mən ən son 2006-cı ildə Bakıda olmuşdum. Ötən illər ərzində çox ciddi dəyişiklik olub. Bakı çox inkişaf edib, çox dəyişib. Yollar, küçələr tərtəmizdir. Yenidən burada olmaq bizim üçün çox xoşdur".

**Cəmiyyətin idarə heyətinin üzvü Zeynəb Gürcanlı Ürektürk də bildirib ki, Qəzetçilər Cəmiyyəti 1946-cı ildə təsis edilib. Onun sözlərinə görə, Qəzetçilər Cəmiyyəti jurnalistlərin hüquqlarını müdafiə etməklə yanaşı, yeni jurnalistlərin yetişdirilməsində də mühüm rol oynayır:**

"Nazmi Bilginin rəhbərliyi ilə gənc jurnalistlərə əlimizdən gələn dəstəyi veririk. Onların yetişdirilməsində, iş həyatına hazırlanmasında yardımçı oluruq. Həmçinin, heç bir quruma bağlı olmayan müstəqil fəaliyyət göstərən jurnalistlərə də dəstək veririk.



**Türkiyə Jurnalistlər Cəmiyyətinin nümayəndə heyəti "Şərq"in qonağı olub**

Cəmiyyətimizin öz mətbu orqanı var. Gənc jurnalistlərin məqalələrini öz qəzetimizdə dərc edərək onlara qonorar veririk. Bununla yanaşı, ehtiyacı olan jurnalistləri zəruri avadanlıqlarla təchiz edirik. Məqsədimiz Azərbaycanda da jurnalistlərlə görüşmək, onlarla təcrübəmizi paylaşmaq, mövcud vəziyyəti öyrənmək, hansı sahədə əməkdaşlığa ehtiyac olduğunu üzə çıxarmaqdır. İki ölkə arasındakı qardaşlıq əlaqələrinin mətbuatımızda da əks olunmasını istəyirik".

**"Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı türkiyəli məsləkdaşlarının çox önəmli bir missiya icra etdiklərini söyləyib və bu işdə hər cür dəstəyə hazır olduğunu vurğulayıb. Qonaqlarla Azərbaycan-Türkiyə media əlaqələri, mətbuat tarixi ilə bağlı müzakirələr aparıb.**

Baş redaktor ziyarətçiləri redaksiya nəzdində yaradılmış Mətbuat Muzeyi ilə tanış edib. Muzeyin ərsəyə gəlməsi və eksponatlar haqda ətraflı







məlumat verən A.Aşırlı muzeydə mətbuatın bütün mərhələlərini əks etdirən dəyərli nümunələrin toplandığını deyib. Akif Aşırlı baş redaktoru olduğu "Şərq" qəzeti barəsində də qonaqlara qısaca məlumat verib. Qəzetin 1996-cı ilin noyabr ayının 1-dən müxtəlif formatlarda bugünədək gündəlik dərc olunduğunu söyləyib. Türkiyəli jurnalistlər redaksiya daxilində belə bir Muzeyin yaradılmasını yüksək qiymətləndiriblər. Qeyd edək ki, nümayəndə heyəti səfər çərçivəsində Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin üzvü Cavid Vəliyevlə görüşüblər.

**İsmayıl**

# Tramp Obamadan qisas almaq istəyir

## Barak Obama məsuliyyətə cəlb edilərsə, bu, ABŞ tarixində ilk belə hadisə olacaq və ölkədə siyasi uçurum yaradacaq

**Rusiyanın 2016-cı il ABŞ prezident seçkilərinə müdaxiləsi ilə bağlı uzun müddətdir davam edən istintaqa görə Donald Tramp və komandası eks-prezident Barak Obamaya qarşı ittihamlar səsləndirib.**



İddialara görə, Trampı Moskvanın agenti kimi təqdim etmək üçün ovaxtkı nəticəsiz cəhdlərin arxasında məhz keçmiş prezident dayanıb. Bildirilir ki, bu səbəbdən gələcəkdə Obama haqqında "vətənə xəyanətlə" bağlı cinayət işi qaldıra bilər. Ağ Evin rəhbəri özünün "Truth Social" sosial şəbəkəsində milli kəşfiyyatın direktoru Tulsi Qabbardı, eləcə də jurnalist Harrison Fildsi "yaxşı iş" münasibəti ilə təbrik edib.

**Politoloq Zeynal Əmrəliyev "Şərq"ə bildirib ki, Donald Trampın Barak Obama üzərinə hücuma keçməsi son bir neçə amillə bağlıdır. Ekspertin fikrincə, ilk növbədə bu, son zamanlar Obama ailəsinin Demokratlar Partiyası içərisində artan nüfuzuna görədir:**

"Demokratlar içərisindəki bəzi fiqurlar yenidən Obama dövrünə qayıtmaqla bağlı çağırışlar edirlər. Barak Obamanın yenidən prezident seçilmək şansı olmadığına görə, həyat yoldaşı Mişel Obamanın namizədliyi təklif edilir. Başqa bir variant isə prezident seçilmək üçün 2 dəfə namizəd olmaq qadağasının ləğvi ilə bağlı təklifin demokratlar tərəfindən dəstəklənməsidir. Sabiq prezidentin tərəfdarları düşünürlər ki, bu, Obamanın Ağ Avə qayıdışının yolunu aça bilər. Tramp bu yolla potensial rəqibini sıradan çıxara və ya onun mövqeyini zəiflədər. İkinci məsələ Trampın Obamadan heyif almaq cəhdidir. 2016-cı il prezident seçkiləri zamanı açıq şəkildə Hillari Klintona dəstək verən Barak Obama Donald Trampı "Rusiyanın adamı" adlandırırdı. Bu, hazırkı prezidentin reytinqinə ciddi təsir göstərdi və seçki yarışında ona xeyli çətinlik yaratdı. Tramp da Obamanı "vətənə xəyanətdə" ittiham etməklə sələfini cəzalandırmaq istəyir. Əgər vəziyyət ciddiləşib Barak Obama məsuliyyətə cəlb edilərsə, bu, ABŞ tarixində ilk belə hadisə olacaq və ölkədə siyasi uçurum yaradacaq. Bu ittihamların Trampın adının "Jeffrey Epstein" qalmaqalında hallanmasından sonra səsləndirilməsi diqqətçəkəndir. Trampın bu ittihamları müəyyən qədər diqqəti öz üzərindən yayındırmaq cəhdi kimi də qiymətləndirilə bilər. İstənilən halda, məsələnin ciddiləşməsi ABŞ daxilində ciddi siyasi təlatümə gətirib çıxara bilər. Obamanın həbsi mövcud siyasi sistemin dayaqlarını zədələyəcək mühüm hadisədir".

**İsmayıl**

# Rusiya bölgədən getmək fikrində deyil

## Kreml Ermənistanda Krım ssenarisi hazırlayır

**Rusiyanın Gümrüdəki 102-ci hərbi bazası əhəmiyyətli dərəcədə gücləndirilir. Ermənistanın "Hraparak" qəzeti məlumat yayıb ki, son həftələr bazaya çoxlu sayda hərbi texnika və sursat gətirilib. Hər gün bir neçə yük təyyarəsi hərbi yüklə enir.**



Nəşr bildirib ki, bu çatdırılmaların məqsədi məlum deyil, lakin müxtəlif fərziyyələr irəli sürülür: "Versiyalardan biri budur ki, Moskva Ermənistandan mümkün geri çəkilmə məsələsində zahirən sakit mövqeyinə baxmayaraq, regionda mümkün dəyişikliklərə hazırlaşır". Nəşr həmçinin iddia edir ki, Ermənistan hakimiyyəti baş verənlərdən xəbərdardır, lakin vəziyyəti açıq şəkildə şərh etmir.

**Qəzetin iddiasını "Şərq"ə dəyərləndirən politoloq Fuad Abbasov deyib ki, Rusiyanın Ermənistanda hərbi bazasını gücləndirməsi çoxmənalı bir fəaliyyətdir. Ekspert vurğulayıb ki, çoxları bunu Rusiyanın Cənubi Qafqazda yeni müharibə, yeni hərbi qarşıdurma başlatmaq kimi qiymətləndirə bilər:**

"Amma hər kəsə bəllidir ki, Rusiya Ukraynada çox zəifləyib. İndiki məqamda Cənubi Qafqazda ikinci cəbhəni açmaq, istər Ermənistana, istərsə də Azərbaycana qarşı hərbi ritorikanı işə salmaq Rusiya üçün çox çətin olacaq. Bu addım Moskva üçün əlverişli qərar olmaz. Ancaq yaddan çıxarmayaq ki, 2014-cü ildə Krım işğal edilərkən eyni şəkildə Krımdakı hərbi bazalara çox sayda rus əsgərləri yerləşdirildi. Rus əsgərləri yavaş-yavaş Krımı tamamilə ələ keçirdi. Nəticə etibarı ilə on ildən çoxdur ki, Krım işğal altındadır. Rusiyanın indiki susqunluğunun hansı mənaya gəldiyini söyləmək çətindir. Nəzərə alaq ki, Paşinyanın Rusiyaya səfərləri aktivləşib. Pərdə arxasında Moskvada görüşlər keçirilir. Bəlkə də, baş nazir Rusiya səfərində, rusiyalı həmkarı ilə görüşdə üzərinə müəyyən öhdəliklər götürüb. Görünür, Kreml Ermənistandakı hərbi bazalarını gücləndirməklə Paşinyan hökumətinə öz mesajın verir".

**F.Abbasovun qənaətincə, Kreml göstərir ki, əgər baş nazir Moskva qarşısında götürdüyü vədlərini yerinə yetirməzsə, hərbi bazalar Ermənistan hökumətinə qarşı təsir mexanizmi rolunu oynayacaq:**

"Əgər Paşinyan iqtidarı Rusiyanın mövqeyi ilə barışmasa, hakimiyyəti üçün ciddi risklər yaranacaq. Yəni hərbi bazaların gücləndirilməsi İrəvan hökumətinə daha çox siyasi mesajları çatdırmaq, xəbərdarlıq etmək məqsədi daşıyır. Bu, həm də onun göstəricisidir ki, Rusiya Ermənistanda, Cənubi Qafqazda mövcud olmaqda maraqlıdır və iddia edildiyi kimi bölgədən çıxmaq niyyətində deyil".

**İsmayıl**

# Qarabağdan Ukraynaya...

## Ukrayna-Rusiya danışıqları Bakıda başlaya bilər

**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ölkəmizin Rusiya və Ukrayna arasında sülh danışıqları üçün platforma təklif etdiyini açıqlayıb. Bu təklif Azərbaycanın son illərdə beynəlxalq danışıqlar və münaqişələrin həlli istiqamətində getdikcə güclənən rolunu bir daha önə çıxarır.**



**Azərbaycan qlobal diplomatiyada yeni güc mərkəzinə çevrilir**

H.Hacıyev Almaniyanın "Berliner Zeitung" nəşrinə müsahibəsində bildirib ki, Azərbaycan tərəflərin maraqlı olduğu təqdirdə Bakıda Rusiya-Ukrayna danışıqlarının keçirilməsi üçün bütün lazımi şəraiti təmin etməyə hazırdır.

O vurğulayıb ki, Bakı özünü regionun diplomatik paytaxtlarından biri kimi təsdiqləyib və mühüm beynəlxalq danışıqlara ev sahibliyi edir: "Əgər dostlarımız və tərəfdaşlarımız (Rusiya və Ukrayna - red.) Bakıda görüşmək istəsələr, biz onları qəbul etməyə çox şad olarıq. Bakı artıq bütün Xəzər regionunun diplomatik paytaxtıdır. Burada Türkiyə və İsrail arasında danışıqlar aparılıb. Suriya və İsrail də Bakıda danışıqlar aparıb. Daha əvvəllər burada Rusiya və ABŞ arasında raket əleyhinə müdafiə sistemləri ilə bağlı strateji danışıqlar, həmçinin Rusiya-NATO danışıqları keçirilib. Son vaxtlar Bakıda bir çox digər diplomatik tədbirlər keçirilib. Biz hamını qəbul etməyə şadıq, lakin heç kimi məcbur edə bilmərik. Onlar özləri bizə müraciət etməlidirlər".

**Araşdırmaçı-jurnalist Asəf Quliyev "Şərq"ə açıqlamasında deyib ki, Bakı son illərdə beynəlxalq danışıqlar və münaqişələrin həlli ilə bağlı diplomatik platforma kimi mühüm rol oynayır:**

"Qlobal təhlükəsizlik məsələsi bu gün beynəlxalq münasibətlər sistemində ən mühüm mübahisə və müzakirə mövzusudur. 2023-cü ilə qədər Cənubi Qafqaz regionu qlobal təhlükəsizlik üçün potensial risk mənbəyi sayılırdı. Azərbaycanın əraziləri uzun müddət işğal altında olmuş, bu ərazilərdə separatçı rejim fəaliyyət göstərmişdi. Lakin 2020-ci ilin sentyabrında Azərbaycan ordusunun apardığı 44 günlük müharibə nəticəsində işğala son qoyuldu. 2023-cü ilin sentyabrında isə separatçı rejim tamamilə tərksilah edilərək tarixə qovuşdu.

Bütün bu proseslərdən sonra Azərbaycan regionda davamlı sülhün və sabitliyin bərqərar olunması üçün ciddi təşəbbüslərlə çıxış etməyə başladı. Bakı artıq beynəlxalq danışıqlar üçün önəmli diplomatik platforma kimi tanınır və bu rolu getdikcə möhkəmlənir.

Azərbaycan, müxtəlif dövrlərdə fərqli güc mərkəzləri arasında balanslı münasibətlər quraraq, münaqişələrin sülh yolu ilə həllinə töhfə verən tərəf kimi çıxış edib. Bu, həm ölkənin geosiyasi mövqeyindən, həm də onun müstəqil və praqmatik xarici siyasətindən irəli gəlir".

**A. Quliyevin sözlərinə görə, hazırda Ukrayna münaqişəsi elə bir mərhələyə çatıb ki, hər iki tərəf sülhə ehtiyac duyur. Regionda sabitliyin bərqərar olması, əlbəttə ki, Azərbaycanın da milli maraqlarına cavab verir:**

"Ümid edək ki, Rusiya və Ukrayna tərəfləri Hikmət Hacıyevin bu təklifinə konstruktiv yanaşacaq və Bakı bu mühüm dialoqa ev sahibliyi edəcək. Belə bir təşəbbüs Azərbaycanın sülhpərvər imicinə müsbət təsir göstərməklə yanaşı, ölkəmizin beynəlxalq nüfuzunu daha da artıracaq. Azərbaycanın iqtisadi, hərbi və diplomatik potensialı ölkəmizin bu cür qlobal təşəbbüsləri reallaşdırmaq iqtidarında olduğunu sübut edir. Bakı artıq təkcə regional deyil, qlobal diplomatiyada da söz sahibi olan bir mərkəzə çevrilməkdədir. Bakı bu gün sabitlik, dialoq və qarşılıqlı anlaşma platforması kimi qəbul olunur və bu status gələcəkdə də ölkəmizə mühüm diplomatik təşəbbüslərdə aparıcı rol oynamaq imkanı verəcək".

**Şəymən Bayramova**




**İranın ali rəhbəri Əli Xameneinin beynəlxalq məsələlər üzrə müşaviri Əli Əkbər Vilayəti Zəngəzur dəhlizi layihəsi ilə bağlı sərt mövqe bildirib. Vilayəti bu layihəni "İranın milli birliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş bir təhdid" kimi qiymətləndirib. Vilayətinin cəfəng sözlərinə görə, "düşmənlər" iqtisadi inkişaf bəhanəsi ilə bölgədə öz planlarını həyata keçirmək istəyirlər.**

# Artıq gecdir

## İran prosesin qarşısını ala bilməyəcək

O, iddia edib ki, bölgədə bəzi dövlətlər, xüsusilə də Qərb dairələri və pantürkist çevrələr "iqtisadi dəhliz" adı altında İranın şimalında NATO-nun təsir zonasını genişləndirmək istəyir. Vilayətinin fikrincə, bu planlar, əslində, Cənubi Qafqazda sabitliyi pozmaq, İranın və Rusiyanın mühasirəyə alınması məqsədi daşıyır. O, Azərbaycanın bölgədəki roluna da toxunaraq, Azərbaycanın xalqını "düşmən planlarına qarşı ayıq olmağa" çağırıb. İranın Zəngəzur dəhlizinə qarşı çıxmasının bir sıra səbəbləri var. Zəngəzur dəhlizi həyata keçərsə, Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında birbaşa bağlantı açılır. Bu halda İran-Ermənistan sərhədi qapana və İranın Ermənistan üzərindən Avrasiya bazarlarına çıxışı çətinləşə bilər. İran bunu özünün şimaldan təcrid olunması kimi qiymətləndirir. Həmçinin, Zəngəzur dəhlizi Türkiyəni birbaşa Mərkəzi Asiya və Qafqaza bağlayır. Bu da İranın regiondakı nüfuzunu zəiflədir. İran bölgədə Türkiyənin və NATO-ya yaxın qüvvələrin güclənməsini öz təhlükəsizliyi üçün risk sayır. İran özünü Qafqazda tarazlaşdırıcı güc kimi görür. Zəngəzur dəhlizi bu balansı Azərbaycan və Türkiyə lehinə dəyişdirə bilər. Bu səbəbdən Tehran bu layihəyə narazılıq edir.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə deyib ki, Xameneinin müşaviri Əli Əkbər Vilayətinin iddiaları, dəhliz layihəsini geosiyasi mübarizənin elementi kimi təqdim etməsi, xüsusilə Rusiyaya təhlükə yaratması haqda dedikləri Moskva ilə gündəliyini eyniləşdirmək və onun dəstəyini əldə etmək məqsədi daşıyır. Ekspertin sözlərinə görə, Vilayətinin vurğunu məhz NATO təhlükəsi və Rusiya üçün strateji regionlar üzərinə yönəltməsi də buna hesablanıb:**

"Onun digər iddiası da şübhəlidir. Vilayəti deyir ki, "İran daha öncə qırmızı xəttini elan edib və sərhəddə hərbi təlimlər keçirməklə dəhlizin açılmasının qarşısını alıb". Hərçənd, Zəngəzur dəhlizinin indiyə qədər açılmamasına səbəb İranın sərhədə "leşkər" toplaması yox, regionda güc balansının toqquşması olub. Bakı, Ankara və Moskva dəhlizlə bağlı ortaq mövqedən çıxış edir. İrəvan isə Qərb tərəfdaşlarının, xüsusilə Bayden Administrasiyasının dəstəyi ilə müqavimət göstərirdi. Rusiya Ukrayna müharibəsinə görə prosesə müdaxilə etmir/edə bilmirdi. Bakı və Ankara alternativ variant kimi Qərbdən edilən təklifləri də dəyərləndirirdi. Bu prosesdən kənarda qalan İran yalnız Ermənistan üçün regionda alternativ "qapı" rolunu oynayır. Eyni zamanda, Fransa başda olmaqla Qərbdə dəhlizə qarşı çıxan oyunçularla "paslaşırdı". Bakı, Ankara və İrəvan xəttində müzakirə edilən regional kommunikasiyanın açılması prosesində Moskvanın birbaşa iştirakı arxa plana keçib".

### Azərbaycan, Ermənistan, Türkiyə və ABŞ arasında Zəngəzur dəhlizinin açılması ilə bağlı razılaşma mövcuddur

Analitikə görə, İranın son dövrlər Zəngəzur dəhlizi ilə bağlı intensiv açıqlamalarının birinci səbəbi Moskvanı öz cəbhəsinə çəkmək cəhdidir: "Digər səbəb isə İsraillə 12 günlük müharibədən sonra regionda İranın gücünə olan inamın azalmasıdır. Xüsusilə indiyə qədər Tehranı alternativ "qapı" olaraq görən İrəvan üçün də vəziyyət eynidir. Buna görə İran proseslərə yeganə müdaxilə imkanı olan Ermənistan amilindən məhrum olmaq riski ilə üzləşib. Vilayətinin "qırmızı xətlərdən" bəhs etməsi və "dəhlizin qarşısını biz aldıq" deməsi Ermənistana xatırlatmadır. Tehran mövqelərini Moskva ilə birləşmək xətti üzərindən saxlamaq niyyətindədir. Mövcud şərtlərdə, ABŞ-nin prosesə müdaxiləsi fonunda İranla mövqeləri-ni eyniləşdirmək Rusiyanın "əlini gücləndirsə" də, strateji perspektivlərdə sərfəli görünmür. Lakin əsas risk cari dövrdə Tehran və Moskvanın regiona hansı təhlükələr yarada biləcəyidir. Daha öncə Bakıya qarşı Tehran-Moskva marşrutu üzərindən təhlükələr olub. Vilayətinin "passiv və müşahidəçi siyasət erası"nın bitdiyini elan etməsi də bu kontekstdə xəbərdarlıq hesab oluna bilər".

**Politoloq Məhəmməd Əsədullazadə də "Şərq"ə deyib ki, İran geosiyasi reallıqlara qarşı anti-Azərbaycan siyasətinin davam etdirməkdədir. Analitik vurğulayıb ki, İranda mühafizəkar dairələr bu xətti yürüdür:**

"İsrailin hücumunda bunkerlərdə gizlənən mühafizəkar dairələr, yenidən üzə çıxaraq geosiyasi layihəyə qarşı çıxırlar. Rusiyanın dəstəyi ilə İran bu dəhlizə çıxmaq siyasətini ortaya qoyub. Amma Ermənistanla ABŞ arasında razılaşma əldə olunub. Ermənistan Baş naziri Nikol Paşinyan da bunu təsdiqləyib. Paşinyan seçki öncəsi həm Rusiya, həm də İranla manevr edir. Görünən odur ki, Azərbaycan, Ermənistan, Türkiyə və ABŞ arasında Zəngəzur dəhlizinin açılması ilə bağlı razılaşma mövcuddur. Ehtimal ki, seçkidə Paşinyan qələbə əldə etdikdən sonra dəhlizin açılması mümkün olacaq. İranın prosesə müdaxiləsi isə mümkün görünmür. Zəngəzur dəhlizinin açılması Türkiyənin regionda mövqeyini gücləndirəcək. Həmçinin, Mərkəzi Asiya ölkələri öz siyasətlərində yeni mərhələyə keçəcəklər. Bu, geopolitik layihədir. Rusiya və İranın layihənin reallaşmasına əngəl olmaq üçün birgə çalışması prosesin axarını dəyişə bilməyəcək".

**İsmayıl Qocayev**

# Vaşinqton itaət gözləyir

## ABŞ Aİ-ni ticarət sazişiylə cəzalandırır



**Amerika Birləşmiş Ştatları (ABŞ) Avropa İttifaqı (Aİ) ilə ticarət sazişi çərçivəsində polad və alüminiuma tətbiq edilən 50 faizlik rüsumu ləğv etməyəcək, lakin perspektivdə bu mallara olan tariflər azaldıla bilər.**

Bu barədə "The New York Times" qəzeti məlumat yayıb.

"Tramp administrasiyasının qlobal səviyyədə polad və alüminiuma tətbiq etdiyi 50 faizlik rüsum sazişin bir hissəsi deyil", - nəşrin məlumatında deyilir.

Qeyd edək ki, ABŞ Prezidenti Donald Tramp ilə Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenin Şotlandiyada keçirilən görüşündə aylarla davam edən gömrük mübahisəsi barədə razılıq əldə olunub.

**Politoloq Turan Rzayev "Şərq"ə deyib ki, polad və alüminium - elə resurslardandır ki, onların istehsalı ciddi xərclərlə bağlıdır:**

"Hazırkı dövrdə bu resursların çıxarılması, yataqların işlənməsi kifayət qədər çətin və bahalı prosesdir. Bu materiallar tükənən resurslar hesab olunur və sənayedə əsas tələbat olan məhsullar sırasındadır. Ona görə də onların üzərinə yüksək rüsumların tətbiq olunması təbiidir. Digər bir mühüm məsələ isə budur: ABŞ Aİ-ni bu sahədə ciddi şəkildə cəzalandırır. Burada söhbət təkcə ticarət rüsumlarından getmir. Eyni zamanda, Aİ silah alışında ABŞ-yə müraciət etməlidir. Həmçinin Ukraynaya göndərilən silahların böyük hissəsi də ABŞ-dən alınmalıdır. Bu isə əslində, qeyd olunan ticarət sazişi ilə üst-üstə düşür".

**Analitikin sözlərinə görə, sözügedən saziş Aİ-yə qarşı tətbiq olunan bir növ cəza tədbiridir:**

"ABŞ bu yanaşma ilə bir daha göstərir ki, Avropa onun gücünü tanımalı və onun müəyyən etdiyi siyasi xətt üzrə hərəkət etməlidir. Əks təqdirdə, bu cür cəza tədbirləri ilə qarşılaşa bilərlər".

**Aynur Babazadə**

# Təyyarə qəsdən vurulub - etiraf var, cəza yoxdur

## Rusiyanın AZAL təyyarəsini vurması Bakı-Moskva münasibətlərini qırılma nöqtəsinə gətirdi



### Tural İrfan: "Rusiya üzr istəməsə, Azərbaycan alternativ tərəfdaşlara yönələcək"

**AZAL təyyarəsini vuran rusiyalı kapitanın səs yazısı yayılıb.**

**D.Paladiçuk səs yazısında etiraf edir ki, hələ dekabrın 15-də kor-koranə, hədəfi görmədən atəş açmalı olub.**

Bu etiraf hadisənin təsadüfi olmadığını və ciddi təhlil tələb etdiyini göstərir. Bu məsələ iki dövlət arasında hələ də həll olunmamış qalır. Diplomatik gərginlik isə davam edir.

**Politoloq Tural İrfan "Şərq"ə açıqlamasında Rusiyanın AZAL-a məxsus təyyarəni vurmasının Azərbaycanla münasibətləri gərginlik həddinə çatdırdığını söyləyib:**

"Faktlar və etiraflar tamamilə təsdiq edir ki, təyyarə qəsdən vurulub. Lakin buna görə Rusiya nə üzrxahlıq edib, nə təzminat ödənilib, nə də cinayətkarlar cəzalandırılıb. Rusiyalı kapitan D.Paladiçukun yayılan səs yazısında da etiraf edilir ki, təyyarəni məhz o, atəş açaraq vurub. Təbii ki, məsuliyyəti yüngülləşdirmək üçün guya kor-koranə, hədəfi görmədən atəş açdığını deyir. Ancaq hər bir halda bu, cinayətin etirafıdır və məsuliyyət yaradır. Məsələnin həlli əvəzinə Rusiya əksinə, daha da münasibətləri tarıma çəkəcək addımlar atdı və soydaşlarımıza qarşı həbs, qətl, sürgün etmək kimi qanunsuz əməllərə əl atdı. Şübhəsiz ki, qonşu ölkələr olaraq bu durum məqsədəuyğun deyil. Ancaq burada Azərbaycanın yox, Rusiyanın boynuna məsuliyyət düşür. Məsələnin həlli yalnız Rusiyanın rəsmi olaraq üzrxahlıq etməsi və günahkarları cəzalandırması ilə mümkündür. Ziyan çəkənlərin ailələrinə təzminat verilməsi də vacibdir. Üstəlik də, pozulmuş münasibətlərin bərpasının uzanması ölkəmizin də xarici siyasətində mövqe dəyişikliyinə, əsasən iqtisadi, ticari məsələlər ətrafında alternativ seçim etməsinə səbəb ola bilər".

**Ekspert Rusiyanın bütün dünyanın hədəfinə tuş gəldiyi bir məqamda Azərbaycanla münasibətləri bu həddə çatdırmasının yalnız öz ziyanına olduğunu bildirib:**

"Məsələ bir qədər də dərinləşərsə, Türkiyə ilə Rusiya arasında da soyuqluq yarana bilər. Ukrayna müharibəsində yanlış addımları ilə böyük güclərin hədəfinə çevrilən Rusiya regionda əlavə gərginlik yaratmaqla özünü blokadaya yaxınlaşdırır.

Ancaq ümid edirəm ki, Rusiya sonda məsələnin həllinə doğru addım atmağa məcbur olacaq. Çünki bu məsələnin həll edilmədən qalması və ya daha da gərginləşməsi ilk növbədə özünün ziyanınadır. Təbii ki, burada maraqlı qüvvələr də var. İran əsasən Zəngəzur dəhlizinin əleyhinə mövqe tutan dövlət olaraq Rusiya ilə eyni cəbhədən çıxış edir və təbii ki, Azərbaycanla münasibətlərin qaydaya düşməsinin də əleyhinədir. ABŞ-nin və Avropanın da müəyyən maraqlarına həm cavab verə, həm də toxuna bilər. Odur ki, ümumiyyətlə, gərginliyin artması, əsasən regionda vəziyyəti narahatverici hala gətirib çıxara bilər ki, bu da həm ABŞ-nin, həm də Avropanın maraqlarına ziddir. Təbii ki, Rusiya vaxtında gərginliyin aradan qalxması və münasibətlərin bərpa olunması üçün müvafiq addımlar atmasa, regionda gərginlik arta, Türkiyənin də ciddi narahatlığına səbəb ola bilər".

**Banuçiçək Kalbalıyeva**

# Cənubi Qafqazın iqtisadi şah damarı uğrunda rəqabət qızışır

## Elçin Xalidbəyli: "ABŞ, Rusiya, İran və Avropa dövlətləri geopolitik rəqabət alətlərini Zəngəzur dəhlizi ətrafında cəmləyiblər"

**Son zamanlar beynəlxalq müzakirə obyektinə çevrilən Zəngəzur dəhlizi ilə bağlı Ankara və Bakının planlarına aydınlıq gətirilib.**




Bu barədə "Türkiyə" qəzeti məlumat yayıb.

Nəşrin iddiasına görə, İran açılmaq üzrə olan dəhlizdən kənarda qalacaq.

Nəşr qeyd edib ki, Zəngəzur dəhlizinin ABŞ-yə icarəyə veriləcəyi ilə bağlı iddialardan sonra Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev məsələnin Ermənistan administrasiyasına aid olduğunu bildirib.

Qeyd edək ki, Prezident İlham Əliyev Zəngəzur dəhlizi ilə bağlı açıqlamasında Zəngəzur dəhlizində Türkiyə ilə birlikdə irəlilədiklərini bəyan edib: "Biz istəyirik ki, hər şey danışıqlar yolu ilə həll olunsun. Ancaq bizi qəzəbləndirməsinlər və başa düşsünlər ki, burada söz sahibi bizik. Zəngəzur dəhlizi açılmalıdır, açılacaq. Türkiyənin xeyrinə olan bizim də maraqlarımızdadır".

**Politoloq Elçin Xalidbəyli "Şərq"ə söyləyib ki, Zəngəzur dəhlizi Cənubi Qafqaz üçün strateji əhəmiyyət daşıyan geoiqtisadi bir layihədir:**

"Hazırda dünyanın aparıcı dövlətləri bu regiona, o cümlədən Zəngəzur dəhlizinə xüsusi maraq göstərir. Xüsusilə Avropa və Asiya dövlətləri arasında iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi baxımından bu dəhliz əvəzolunmaz layihə hesab olunur. Hazırkı mərhələdə ABŞ, Rusiya, İran və Avropa dövlətləri geopolitik rəqabət alətlərini Zəngəzur dəhlizi ətrafında cəmləyiblər. Əslində, Azərbaycan üçün Zəngəzur dəhlizinin ABŞ-nin nəzarətində olması ciddi narahatlıq yaratmır. Prezident İlham Əliyev dəfələrlə və qəti şəkildə bəyan edib ki, Azərbaycanın ərazisində heç bir xarici ölkənin operatoru fəaliyyət göstərməyəcək. Bu, o deməkdir ki, ABŞ-nin Zəngəzur dəhlizini icarəyə götürmək niyyətində olan şirkəti Azərbaycanın ərazisində fəaliyyət göstərməyəcək. Həmçinin ABŞ şirkətinin ölkəmizə hər hansı bir aidiyyəti olmayacaq. Bu məsələ birbaşa ABŞ və Ermənistan arasında həll edilməli olan məsələdir. Çünki ABŞ-nin şirkətinin nəzarət edəcəyi hissə Ermənistan ərazisindən keçən dəhlizdir".

**Analitik qeyd edib ki, Azərbaycan üçün bu mənada narahatlıq doğuracaq əsaslı bir səbəb yoxdur:**

"ABŞ-nin Zəngəzur dəhlizində mövcudluğu ilk növbədə Rusiya və İranı narahat edir. Rusiya dəhlizə özünün nəzarət etməsini istəyirdi. Lakin ABŞ-nin prosesə qoşulması Rusiyanın bu layihənin həyata keçirilməsində iştirak etməyəcəyini göstərir. Bundan əlavə, ABŞ-nin Zəngəzur dəhlizində qarantor rolunu üzərinə götürməsi Rusiyanın Cənubi Qafqazdakı təsir imkanlarının ciddi şəkildə azalması ilə nəticələnəcək.

Eyni narahatlıq İranda da müşahidə olunur. ABŞ şirkətinin Ermənistanın İranla sərhəd bölgəsində yerləşməsi Vaşinqtonun birbaşa İran sərhədinə yaxınlaşması kimi qiymətləndirilir. İran ümumilikdə Zəngəzur dəhlizinin açılmasını özünün geosiyasi maraqlarına təhdid kimi görür. Bütün bu narahatlıqlara baxmayaraq, əgər ABŞ və bəzi Qərb dövlətləri dəhlizin açılmasında israrlı olarsa, bu zaman nə Rusiya, nə də İranın mövqeyinə əhəmiyyət veriləcək. Üstəlik, onların iştirakı olmadan Zəngəzur dəhlizi reallaşacaq. Artıq proses həlledici mərhələyə daxil olub və dəhlizə maraq göstərən dövlətlər arasında rəqabət son mərhələyə keçib".

**Elçin Xalidbəyli vurğulayıb ki, ABŞ həm İranı, həm də Rusiyanı bu dəhlizdən kənarda saxlayaraq Cənubi Qafqazda yeni bir mərhələnin əsasını qoymaq istəyir:**

"Beləliklə, region Avropa və Asiyanı iqtisadi və ticari baxımdan birləşdirən əhəmiyyətli geostrateji mərkəzə çevriləcək. Bu, region ölkələri üçün geniş inkişaf perspektivləri yaradacaq. Digər tərəfdən Rusiya bu məsələ ilə bağlı sərt mövqe nümayiş etdirməyə hazırlaşır. Böyük ehtimalla, Rusiyanın Ermənistandakı 102-ci hərbi bazaya əlavə hərbi texnika və canlı qüvvə yerləşdirməsinin əsas səbəblərindən biri də məhz Zəngəzur dəhlizi ətrafında yaranmış situasiyadır. Zəngəzur dəhlizinə ABŞ şirkətinin nəzarət etməsi məsələsi yalnız ABŞ və Ermənistan arasında müzakirə olunmalı və onların arasında həll edilməli məsələdir. Azərbaycan bu məsələyə müdaxilə etməyi düşünmür".

**Aynur Babazadə**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”**

# Qarabağda həyat yenidən canlanır

## Yurd yerlərimizdə Azərbaycan bayrağı ucalarda dalğalanır



**Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən “Böyük Qayıdış” proqramı ölkənin tarixində və gələcək inkişafında xüsusi əhəmiyyət kəsb edir. Bu proqram çərçivəsində azad edilmiş torpaqlarda məcburi köçkünlərin öz doğma yurdlarına təhlükəsiz və rahat şəkildə qayıtması üçün genişmiqyaslı işlər aparılır.**

“Böyük Qayıdış” təkcə insanlarımızın öz evlərinə dönməsi deyil, həm də bu bölgələrin sosial-iqtisadi, infrastruktur və mədəni baxımdan yenidən bərpası deməkdir. Hazırda azad edilmiş ərazilərdə yol-nəqliyyat infrastrukturu, elektrik və su təchizatı, məktəblər, tibb müəssisələri və digər mühüm obyektlərin tikintisi və bərpası sürətlə davam edir. Dövlət tərəfindən bu prosesə xüsusi diqqət göstərilir və böyük maliyyə vəsaitləri ayrılır. Böyük Qayıdış”la bağlı görülən işlər Azərbaycanın inkişaf strategiyasının mühüm hissəsini təşkil edir və ölkənin gələcəkdə daha da güclü, birləşmiş və rifah içində olan dövlət kimi formalaşmasına zəmin yaradır.

Yeri gəlmişkən, ötən həftə Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forumu Azərbaycanın müasir media çağırışları fonunda regional inkişaf və informasiya təhlükəsizliyi məsələlərinin müzakirə olunduğu mühüm platformaya çevrildi. Prezident İlham Əliyevin forumdakı çıxışı və iştirakçılarla dialoqu təkcə media müstəvisində deyil, həm də Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi genişmiqyaslı dirçəliş proqramlarının əhatəsini nümayiş etdirdi.

Prezident azad edilmiş ərazilərdə həyata keçirilən “Böyük Qayıdış” proqramının miqyasından danışaraq qeyd etdi ki, görülən işlərin həcmi sadəcə bir cavabla izah edilə bilməz. Regionun bərpası istiqamətində görülən genişmiqyaslı infrastruktur layihələri artıq konkret nəticələrini verir - enerji təminatı tam bərpa olunub, yollar, tunellər inşa edilib, ilk köç dalğaları artıq reallaşıb: “O ki qaldı “Böyük Qayıdış”a, bunu demək üçün gərək biz ayrıca panel təşkil edək və mən təkcə bir neçə saat bu suala cavab verim. Çünki doğrudan da, görülən işlər o qədər genişmiqyaslıdır ki, bunu bir cavabda səsləndirmək çətindir. Hər şey göz önündədir. Qayıdan insanların sayı getdikcə artır və bundan sonra daha sürətlə artacaq. Çünki biz birinci dörd ildə daha çox infrastruktur layihələri ilə məşğul idik. Onların əsas hissəsini bitirmişik, bütün Qarabağ və Şərqi Zəngəzur dairəvi elektrik şəbəkə ilə artıq təmin edilib, Azərbaycanın ənənəvi elektrik təsərrüfatına da qoşulub. Burada artıq 280 meqavat gücündə su elektrik stansiyaları enerji istehsal edir və bu enerji Qarabağdan Azərbaycanın digər bölgələrinə gedir. Çünki bu gün Qarabağda o qədər adam yaşamır ki, bu qədər elektrik enerjisi lazım olsun. Ağdam-Xankəndi-Şuşa yolunda 7 tunel inşa edilib. Tunellərin ümumi uzunluğu 80 kilometrdir. Ən uzun tunel yəqin ki, növbəti iki-üç ayda hazır olacaq. Böyük Qayıdış Proqramı artıq reallaşıb. Təbii ki, bunun mərhələləri olacaq və aydan-aya, ildən-ilə qayıdan vətəndaşların sayı çoxalacaq, Qarabağ, Şərqi Zəngəzur dirçələcək. Cənab İlham Əliyev bu çağırışı etdi: “Mən “Böyük Qayıdış”ın əvvəlində demişdim ki, biz bu bölgəni cənnətə çevirəcəyik, artıq cənnətin kiçik bir parçasıdır. Bunu burada öz gözlərimizlə görürük”.

Hazırda da Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam etdirilir. Növbəti köç karvanı Xocalının Ballıca kəndinə yola salınıb. Ballıcaya köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Bu mərhələdə kəndə 17 ailə - 62 nəfər köçürülüb. Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür edirlər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

Onu da vurğulayaq ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 50 mindən çox insan yaşayır.

Prezident İlham Əliyev çıxışında açıq şəkildə göstərdi ki, Azərbaycanın Qarabağda apardığı işlər, ilk növbədə, sistemli bir strateji iqtisadi bərpa aktıdır. Postkonflikt regionların inkişafı ilə bağlı dünya təcrübəsində - məsələn, Ruanda, Bosniya və ya Kosovoda - iqtisadi reinteqrasiya çox vaxt gecikmiş və dayanıqsız formada aparılmışdı. Azərbaycan isə bu prosesə “sabitlik, innovasiya və enerji bərpası” formatında start verərək, postkonflikt regionların iqtisadi yenidənqurulmasında müstəqil və intellektual yol seçib.

**Milli Məclisin deputatı, “Ana Vətən” Partiyasının sədr müavini Günay Ağamalı deyib ki, “Böyük Qayıdış” proqramı çərçivəsində işğaldan azad olunmuş ərazilərə Böyük Köçün həyata keçirilməsi Azərbaycan tarixində dönüş nöqtəsi olmaqla yanaşı, milli yaddaşımızın, kimliyimizin və əzəli torpaqlarımıza bağlılığımızın parlaq təcəssümüdür. Onun sözlərinə görə, bu insanların ata-baba yurdlarına qayıdışı və 30 illik ədalətsizliyə verilən cavab, milli ləyaqətin və ərazi bütövlüyünün bərpası deməkdir:**

“Dövlətimizin həyata keçirdiyi genişmiqyaslı bərpa və yenidənqurma tədbirləri nəticəsində Qarabağ və Şərqi Zəngəzurda müasir yaşayış məntəqələri, infrastruktur, məktəblər, xəstəxanalar və iş yerləri yaradılır. Bu proseslərin həyata keçirilməsi yaşayış mühitinin və eyni zamanda iqtisadi və sosial həyatın bərpasını təmin edir. Böyük Qayıdış xalqımızın iradəsinin, dövlətimizin gücünün və Cənab Prezident İlham Əliyevin qətiyyətli rəhbərliyinin nəticəsidir. Bütün bunlar göstərir ki, Azərbaycan heç bir zaman öz torpaqlarından, suveren hüquqlarından və milli maraqlarından vaz keçməyib və keçməyəcək. Qayıdışla birlikdə Qarabağda həyat yenidən canlanır, yurd yerlərimizdə Azərbaycan bayrağı əbədi dalğalanır”.

**Şəymən Bayramova**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**





# Əhməd Əş-Şaraanı çətin günlər gözləyir

## İsmail Cingöz: “Seçki prosesi Suriyanın gələcəyini formalaşdıracaq əsas mərhələlərdən biri olacaq”

**Suriyadakı yeni administrasiya dövründə ilk parlament seçkiləri bu ilin sentyabr ayında keçiriləcək. Bu barədə seçki prosesinin rəhbəri Məhəmməd Taha Suriyanın dövlət informasiya agentliyi SANA-ya bildirib.**

Onun sözlərinə görə, Xalq Məclisində səsvermə 15-20 sentyabr tarixlərində keçiriləcək.

Qeyd edək ki, bu, Suriyanın keçmiş Prezidenti Bəşər Əsədin devrilməsindən sonra ölkədə keçiriləcək ilk seçkilər olacaq.

Beynəlxalq siyasət üzrə türk ekspert İsmail Cingöz “Şərq”ə deyib ki, Suriyada Bəşər Əsədin devrilməsindən sonra Əhməd Əş-Şaraa müxalifət adından hakimiyyətə gələrək bir sıra qərarlar qəbul etdi: “Yeni Suriyanın qurulması prosesində Əhməd Əş-Şaraanın rəhbərlik etdiyi hökumət özünə ən yaxın tərəfdaş olaraq Türkiyəni gördü. Bu səbəbdən Türkiyə də Əhməd Əş-Şaraaya çox sahədə dəstək göstərdi. Xüsusilə rəsmi Ankara konstitusiya prosesinin necə olacağı, hüquq sisteminin qurulması, ölkə idarəetmə modeli, həmçinin demoqrafik, etnik və məzhəb baxımından rəngarəng olan Suriyada bərabərlik və ədalətin necə təmini məsələlərində fikir və texniki dəstək təqdim etdi. Nəhayət, mart ayında Əhməd Əş-Şaraanın rəhbərlik etdiyi hökumət konstitusiyaya dair bir sıra müddəaları açıqlayacağını bildirmişdi. Mart ayında qüvvəyə minən konstitusiya bəyannaməsində İslam hüququnun mərkəzi yer tutacağı, eyni zamanda qadın hüquqları və ifadə azadlığına təminat veriləcəyi vurğulanmışdı. Bu çərçivədə yeni hüquqi sistem və dövlət strukturu qurulması istiqamətində addımlar atılmağa başlanmışdı”.

**Analitik əlavə edib ki, hazırda Suriyada xalq məclisindəki deputat yerlərinin yeni rəhbərlik tərəfindən 150-dən 210-a yüksələcəyi açıqlanıb:**

“Həmçinin bildirilib ki, bu 210 yerin 70-i prezidentin birbaşa təyin etdiyi texnokratlardan ibarət olacaq. Bu isə o deməkdir ki, parlamentin üçdə biri birbaşa prezident tərəfindən təyin ediləcək. Qalan parlament üzvlərinin seçilməsi ilə bağlı 2011-ci il siyahıyaalmasının əsas götürüləcəyi və seçkilərdə təxminən 20 faizlik kvotanın qadınlara ayrılacağı yönündə müzakirələr aparılır. Burada əsas məsələ odur ki, demoqrafik, etnik və məzhəbi baxımdan çoxşaxəli olan Suriyada bütün azlıqlara bərabər yanaşılacaq, ya yox? Bu sual həm suriyalılar, həm də beynəlxalq ictimaiyyət tərəfindən ciddi şəkildə izlənilir. Lakin Əhməd Əş-Şaraanın rəhbərlik etdiyi hökumət seçki prosesinin beynəlxalq müşahidəçilərə açıq olacağını və nəticələrə ediləcək etirazların hüquqi təminat altına alınacağını söyləyib. Bu da əhəmiyyətli bir inkişafdır. Digər tərəfdən Suriyada hələ də davam edən daxili münaqişələr, “Dekabr baharı” hadisələrinin yaratdığı gərginliklər mövcuddur. Nəticə etibarilə milyonlarla suriyalının başda Türkiyə olmaqla müxtəlif ölkələrə müvəqqəti sığınacaq məqsədilə köçməsi, yaxud qaçqın və ya miqrant statusu ilə başqa ölkələrə getməsi səbəbilə ölkə daxilində seçici sayı kəskin şəkildə azalıb. Bu da seçkilərin nə dərəcədə ədalətli ola biləcəyi, iştirak səviyyəsinin necə olacağı suallarını doğurur. Hələlik Suriya xaricində yaşayan suriyalıların seçkilərdə necə iştirak edə biləcəyi ilə bağlı dəqiq açıqlama verilməyib”.

**İsmail Cingöz qeyd edib ki, Əhməd Əş-Şaraanın rəhbərlik etdiyi keçid hökuməti maksimum iştirakçılı və ədalətli bir seçki keçirilməsi üçün bütün səylərini ortaya qoyacağını bildirir:**

“Ədalətli və bərabərhüquqlu bir seçkinin necə keçiriləcəyini isə zaman göstərəcək. Bununla yanaşı, Suriyada hələ də sabitliyin olmaması, xarici müdaxilələrin davam etməsi səbəbilə bəzi qrupların seçkilərdə təxribat yaratmağa çalışacağı və ya müəyyən azlıqların qızışdıracağı ehtimalı da gözlənilməlidir. Əgər ədalətli və bərabər təmsilçiliklə seçkilər həyata keçirilərsə və əhalinin demoqrafik nisbətlərinə uyğun təmsilçilik təmin olunarsa, bu, Suriyanın gələcəkdə daha sabit idarə olunmasına, qanunların yeni parlament sistemi ilə qəbul edilməsinə və ölkənin yenidən qurulmasına töhfə verə bilər. Yeni bu seçki prosesi Suriyanın gələcəyini formalaşdıracaq əsas mərhələlərdən biri olacaq.

Lakin əhalisinin böyük hissəsi miqrasiya etmiş və yerli əsaslı etnik-məzhəbi qarşıdurmaların hələ də davam etdiyi bir Suriyada bu seçkinin necə aparılacağı, xalqın necə razı salınacağı sual altındadır. Bu səbəbdən də Əhməd Əş-Şaraanın rəhbərlik etdiyi idarəni çətin bir proses gözləyir. Biz bu prosesi yaxından izləyəcəyik və zamanla onun necə həyata keçəcəyini birlikdə müşahidə edəcəyik”.

**Aynur Babazadə**

# Urmu gölünün qurudulması davam etdirilir

## Molla rejimini yalnız güneyli soydaşlarımızın etirazları və dünya birliyinin ciddi təzyiqləri dayandıra bilər



**Urmiya gölünün bərpası mümkün olmayacaq. Bunu Qərbi Azərbaycan vilayəti Ətraf Mühitin Mühafizəsi İdarəsinin baş direktoru Höccət Cabbari bildirib.**

Onun sözlərinə görə, kənd təsərrüfatı sektorunda su ehtiyatlarının idarə olunması, aqrar təşkilatlar tərəfindən suyun toplanması eyni şəkildə qalarsa, quruma prosesi davam edəcək. Agentliyin müşahidəsinə əsasən, Urmiya gölünün şimal və cənub hissəsi yox olmaq üzrədir və onun dirçəlişinə ümidlər gündən-günə azalır. Bildirilib ki, yağıntıların kəskin azalması, buxarlanmanın artması, bağların və kənd təsərrüfatı torpaqlarının inkişafının davam etməsi, Urmiya gölünün bərpası üzrə Komitənin qərarlarının yerinə yetirilməməsi bir çox mütəxəssisləri onun bərpasının mümkün olmayacağı qənaətinə gətirib: “Ən yaxşı halda o, bizim mövsümi gölümüz olacaq, yalnız toz fırtınalarının qarşısını alan su hövzəsi kimi dibi nəm qalacaq”. İnformasiyaya əsasən, Urmiya gölü yayın sonuna qədər tamamilə quruyacaq, qışda şərait yaxşılaşa bilər.

**Siyasi şərhçi Bəybala Mirzəyev “Şərq”ə deyib ki, Güney Azərbaycan türklərinin ən ağrılı məsələlərindən biri Urmu gölünün qurudulmasının davam etməsidir. Ekspert vurğulayıb ki, Urmu gölünün bərpası ilə bağlı Yaponiya və İran hökuməti arasında 2024-cü ilin oktyabr ayının əvvəlində razılaşma imzalanıb:**

“Yaponiya tərəfi gölün bərpası üçün əvəzsiz olaraq ilk mərhələdə 4,5 milyon dollar vəsait ödəyib. Daha sonra Yaponiya hökuməti 2025-ci ilin aprel ayında da yenidən Urmu gölünün bərpası üçün 3.3 milyon dollar vəsait ayırıb. Lakin buna baxmayaraq, həmin pulların hara xərcləndiyi bəlli deyil. Mollalar yaponlardan həmin pulları təhvil alsalar da, ancaq bu günə kimi gölün bərpası üçün heç bir iş görməyiblər.

Beləliklə, Azərbaycanın təbiət incisi Urmu gölü getdikcə daha da acınacaqlı vəziyyətə düşür. Fars-molla rejimi Urmu gölünün məqsədli şəkildə qurudulmasında iki hədəf güdür. Gölün quruması və duzlaşmanın, səhralaşmanın artması nəticəsində ətraf bölgələrdən azərbaycanlıların köçməsinə nail olunacaq. Urmu gölünün yatağındakı nadir, qiymətli təbii sərvətlərin, mineralların Çin, Rusiya və digər ölkələrin şirkətləri ilə birgə mənimsənilməsi mümkünləşəcək. Görünən budur ki, molla rejimi bu hədəflərinə nail olmaq üçün hər vasitəyə əl atmağa hazırdır. Molla rejimini yalnız güneyli soydaşlarımızın etirazları və dünya birliyinin ciddi təzyiqləri dayandıra bilər”.

**İsmayıl**

**Yay aylarında insanların qarşılaşdığı təhlükələrdən biri də ilan sancmasıdır. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi aprel ayından bu günə qədər Naxçıvanda ilan sancması ilə bağlı qeydə alınan faktların statistikasını açıqlayıb.**



# İlk 1 saat həyati əhəmiyyət daşıyır

## İlan sancmasından sonra ayaq kəsilə bilər

İlan sancması diaqnozu ilə ümumilikdə 43 nəfər müraciət edib.

Həmçinin, qeyd olunan müddətdə əqrəb sancması diaqnozu ilə 137 nəfər, qara əqrəb sancması diaqnozu ilə 7 nəfər, gün vurma diaqnozu ilə isə 6 nəfər xəstəxanalara müraciət edib.

Ekoaktivist Zülfü Fərəclinin sözlərinə görə, ilan sancmaları bəzi hallarda həyati risk daşısa da, düzgün ilkin yardım və vaxtında tibbi müdaxilə ilə təhlükəni minimuma endirmək mümkündür: "Hər il yay aylarında ölkəmizdə ilan və əqrəb sancmaları artır. Qeyd edim ki, ölkəmizdə mövcud olan 29 ilan növündən yalnız 7-nin zəhəri həyati risk təşkil edə bilir ki, bu növlərin hamısı gürzələr fəsiləsinə daxildir.

Müxtəlif növlərin zəhərləri müxtəlif tərkibə sahib olduğu kimi, eyni növün müxtəlif fərdlərinin zəhərlərinin tərkibindəki maddələr də ilanın qidasından, yaşadığı yerdən, iqlim şəraitindən və ilanın yaşından asılı olaraq fərqliliklər göstərə bilir. Məsələ burasındadır ki, bir çox zəhərsiz ilan növü yırtıcılardan qorunmaq üçün öz naxışları və hərəkətləri ilə gürzə növlərini təqlid edirlər (mimikriya). Bu da bir çox insanı çaşdırır və onlar zəhərsiz ilan növlərini gürzəyə bənzədir və çox vaxt öldürürlər.

Ölkəmizdə yaşayan ilan növlərinin çoxu təhlükəsiz olduğu üçün, həmçinin zəhərli növlərin əksəriyyəti nadir növlər olduğundan təhlükəli ilan növü ilə qarşılaşma ehtimalınız çox azdır. Buna baxmayaraq, zəhər baxımdan ölkəmizdəki ən təhlükəli növ hesab olunan və geniş yayılan ilan xalq arasında səhvən Qafqaz gürzəsi adlandırılan (Qafqaz gürzəsi adlanan növə, yəni Vipera kaznakovi-yə ölkəmizdə rast gəlinmir), əsl adı Livan gürzəsi və ya nəhəng gürzə (lat. Macrovipera lebetina) olan növdür. Bu növ istisna olmaqla insanların əsasən qarşılaşdıqları və təəssüf ki, öldürdükləri növlər müxtəlif su ilanları və təlxə növləri olur. Gürzələri digər (təhlükəsiz) ilanlardan ayırmanın müxtəlif üsulları vardır. İnternetdə başın formasının üçbucaq olması qeyd olunsa da, bu, düzgün məlumat deyil. Əksinə, zəhərsiz olan ilan növlərinin bir çoxunun (xüsusən təlxələrin) başı üçbucaq olur. Gürzələrin bədəni daha enli və qısaölçülü olur. Fikrimcə, ən əsas ayırma üsulu quyruğun uzunluğudur. Gürzələrdə quyruq olduqca qısa və küt uclu olur. Zəhərsiz, yarızəhərli ilanlarda isə quyruq uzun və nazik olur. Məhz buna görə də aid olduqları Suilanları fəsiləsinin latınca adı "qamçı" sözündəndir (uzun quyraqları qamçıya bənzədiyi üçün bu ad verilib). Əlavə olaraq gürzələrin gözü elliptik (şaquli) olub, burunlu göz arasında çuxur (istilik sensoru) yerləşir".

### Yay aylarında ilan təhlükəsi artır, bəzi bölgələr daha risklidir

Aparılan araşdırmalara istinad edən ekoaktivist qeyd edib ki, ölkəmizdə 7 növ əqrəb qeydə alınıb və bu növlər arasında ən təhlükəli olanı qara əqrəbdir: "Ölkəmizin ən təhlükəli növü olan qara əqrəbə yalnız Muxtar Respublikada rast gəlmək olur. Ölçüsünə görə iri olan əlvan Qafqaz əqrəbi (sarı əqrəb) də yalnız Naxçıvanda qeydə alınıb. Əlbəttə, zəhərin təsiri sancılan insanın yaşından, sağlamlıq vəziyyətindən, sancmanın olduğu yerdən (ürəyə yaxınlıq) asılıdır. Qocalar və uşaqlar əqrəb sancmasına daha həssasdırlar. Əqrəb sancmalarının böyük əksəriyyəti ehtiyatsızlıqdan baş verir. Yəni əqrəbi görmədən tapdaladıqda və ya yatarkən əzdikdə insanları sancır. Əqrəb sancdıqda yaranı suyla təmizləməli, sancılan yerə buz qoymalı (ağrını azaltmaq üçün), sonra isə xəstəxanaya müraciət edilməlidir. Yaranı deşmək, sormaq qətiyyən olmaz. Növündən asılı olmayaraq istənilən əqrəb sancması zamanı həkimə müraciət edilməlidir".

**Həkim Toğrul Məmmədli isə "Şərq"ə açıqlamasında qeyd edib ki, ilan və əqrəb sancması onların növündən və pasiyentin xüsusiyyətlərindən asılıdır. Onun sözlərinə görə, Azərbaycanda ən çox kliniki əhəmiyyət kəsb edən ilan növləri gürzələrdir. Yayılmasına, zəhərinin təsirinə və miqdarına görə ən vacib bioloji növ nəhəng gürzədir:**

"İlan sancması insan orqanizmi üçün potensial təhlükəli vəziyyətlərdən biridir. Zəhərli ilan növünə, zəhərin miqdarına və fərdi xüsusiyyətlərə görə klinik mənzərə yüngül narahatlıqdan həyati təhlükəyə qədər dəyişə bilər. Bu səbəbdən ilan sancmalarında düzgün ilkin yardım və vaxtında peşəkar tibbi müdaxilə həyati əhəmiyyət daşıyır. İlan sancmasından sonra insan orqanizmində bir sıra əlamətlər meydana çıxa bilər. Bu əlamətlər sancma yerində və ya ümumi bədəndə özünü göstərir. Lokal olaraq, yəni sancma yerində güclü ağrı, qızartı, göyərmə və şişkinlik müşahidə oluna bilər. Ümumi simptomlara isə başgicəllənmə, baş ağrısı, qarın ağrısı, ürək döyüntüsünün artması, tez-tez və səthi tənəffüs, nəfəs darlığı, ümumi zəiflik və yuxululuq, ürəkbulanma və qusma, soyuq tər və üşütmə, eləcə də qan laxtalanmasının pozulması daxildir.

İlan sancması baş verdikdə peşəkar tibbi yardım gələnədək göstərilən ilkin yardım həyati əhəmiyyət daşıyır. Panikaya düşməmək və təmkinli davranmaq vacibdir, çünki əksər hallarda ilan sancması ölümcül olmur. Mümkünsə, ilanı təhlükəsiz məsafədən şəklini çəkmək tövsiyə olunur. Bu, onun növünü təyin edərək müalicəni düzgün yönləndirmək üçün vacibdir.

Zərərçəkmiş hərəkətsiz saxlanmalı və mümkün qədər rahat vəziyyətdə uzadılmalıdır. Əgər sancma ətraf nahiyəsindədirsə (əl, ayaq və s.), bu hissə neytral vəziyyətdə saxlanılmalı və ürək səviyyəsindən bir qədər aşağıda yerləşdirilməlidir. Şəxsin su və ya çay kimi maye qəbul etməsinə şərait yaradılmalı, sancma nahiyəsindəki üzük, saat və qolbaq kimi əşyalar çıxarılmalıdır. Sancma yeri sabun və su ilə yuyulmalı, təmiz bir sarğı ilə sarınmalıdır. Həmçinin şişkinliyin yayılma sərhədi dəridə qeyd olunmalı və vaxtı yazılmalıdır".

**Bununla yanaşı, həkim bildirib ki, bəzi müdaxilələr qətiyyən tövsiyə edilmir. Yardımı gecikdirmək və ya simptomların ortaya çıxmasını gözləmək təhlükəlidir:**

"Zərərçəkmişin özü avtomobil idarə etməməlidir, çünki başgicəllənmə və huşunu itirmə riski var. İlanı tutmaq, öldürmək və ya ona toxunmaq məsləhət deyil - ölü ilan belə refleksiv şəkildə zərər verə bilər. Turniket tətbiq etmək, sancma yerini kəsmək, yandırmaq və ya ağızla zəhəri sovurmaq həm faydasızdır, həm də əlavə təhlükələr yarada bilər. Ağrını azaltmaq məqsədilə alkoqol qəbulu və ya sübut olunmamış xalq təbabəti üsulları da qətiyyən tövsiyə olunmur. Zərərçəkmiş tibb müəssisəsinə çatdırıldıqda, ilk olaraq həyat əlamətlərinə nəzarət edilir. Damar daxili maye ilə rehidratasiya, ağrıkəsicilərin verilməsi və ən əsası - zərdab (antivenom) tətbiqi əsas müalicə tədbirlərindəndir. Zərdab ilan zəhərinə qarşı spesifik təsir göstərən və onun neytrallaşmasını təmin edən ən təsirli vasitədir. Eyni zamanda, qan laxtalanmasını tənzimləyən preparatlar və infeksiyaların qarşısını almaq üçün antibiotiklər də təyin olunur. Lokal müalicə tədbirlərinə zədələnmiş ətrafın yuxarıda saxlanılması və yaranın aseptik qayğısı daxildir. Ağır hallarda - məsələn, sancma nahiyəsindəki təzyiqin artması nəticəsində kompartment sindromu yaranarsa - təcili cərrahi müdaxilə tələb oluna bilər. Gecikmiş dövrdə toxuma ölümü (nekroz) baş verərsə, həmin toxumalar çıxarılır və yaranın plastik cərrahiyyə ilə bərpası həyata keçirilir. Ümumilikdə, ilan sancması zamanı əsas olan vaxtında və düzgün müdaxilədir. Təhlükə anında sakit qalmaq, ilkin yardımı düzgün göstərmək və peşəkar tibbi yardım almaqla bu hadisənin ağır nəticələrinin qarşısını almaq mümkündür".

**Şəymən**



# İşsizlik kişini, zorakılıq ailəni çökdürür

## Maddi çətinlik ailəni yalnız yoxsullaşdırmır, psixoloji cəhətdən də dağıdır

**Bakıda işsiz ər iki manata görə arvadını döyüb. Hadisə paytaxtın Xətai rayonunda baş verib.**

Cəlilabad rayonunda qeydiyyatda olmaqla Bakının Xətai rayonu ərazisində yaşayan, 1996-cı il təvəllüdlü Elvin Məmmədov (soyad şərtidir) 2016-cı ildə ailə həyatı qursa da, son vaxtlar heç bir yerdə işləməyib. Onun ailəsini isə aptekdə əczaçı işləyən həyat yoldaşı Könül dolandırıb. Bir neçə gün öncə Elvin həyat yoldaşına mesaj yazaraq ondan siqaret almaq üçün iki manat istəyib. Həyat yoldaşı isə pulunun olmadığını deyib və Elvinə pul göndərməyib. Axşam işdən evə gələn Könüllə Elvin arasında mübahisə yaranıb, nəticədə ər arvadına yumruq və təpik zərbələri endirib.

Hadisə nəticəsində müxtəlif bədən xəsarətləri alan qadın evdən qaçıb, hüquq-mühafizə orqanlarına məlumat verib. Hadisə yerinə polis əməkdaşları gəliblər və Elvin saxlanılıb, barəsində həbs-qətimkan tədbiri seçilib. Faktla bağlı cinayət işi başlanıb və iş məhkəməyə göndərilib. Məhkəmə istintaqı dövründə zərərçəkmiş şəxs şikayətini geri götürdüyü üçün cinayət işinə xitam verilib.

**Psixoloq Zeynəb Əyyubova "Şərq"ə bildirdi ki, maddi çətinliklər uzunmüddətli stress, qorxu və ümidsizlik hissi yaradır:**

"Ailənin iqtisadi təməli sarsıldıqca, emosional sabitlik də pozulur. Xüsusilə kişi özünü ailənin "baxıcısı" kimi görürsə, bu rolu yerinə yetirə bilmədikdə daxilində ciddi gücsüzlük və dəyərsizlik hissləri yaşaya bilər. Bu da bəzi hallarda aqressiya, zorakılıq və emosional partlamalarla nəticələnə bilər. İşsizlik bir çox kişi üçün yalnız maddi yox, həm də kimlik və status itkisi deməkdir. Özünü dəyərsiz hiss edən fərd bu iç konfliktini bəzən ən yaxınlarına yönəldir. Aqressiya burada bir müdafiə mexanizmi rolunu oynayır. Amma bu, qəbulolunan və ya haqlı davranış deyil. Zorakılığa məruz qalan qadınlarda depressiya, anksiyete narahatlıq, özgüvən itkisi, travma sonrası stress pozuntusu (PTSD) kimi problemlər müşahidə olunur. Qadın özünü çıxılmaz vəziyyətdə hiss edir və çox vaxt zorakılığı "səssizcə" qəbul etməyə başlayır - bu isə həm onun, həm də uşaqların psixoloji sağlamlığı üçün təhlükəlidir. İlk növbədə qadınlar başa düşməlidirlər ki, zorakılıq heç vaxt qəbulolunan deyil. Onlara psixoloji dəstək, hüquqi məsləhət, sığınacaq və ya təhlükəsiz məkan təklifi, iş imkanları və iqtisadi müstəqillik üçün təlimlər təklif olunmalıdır. Həm dövlət qurumları, həm də QHT-lər bu sahədə daha fəal olmalıdırlar. Ailədaxili zorakılıq təkcə şəxsi problem deyil, bu, cəmiyyətin struktural problemlərinin (işsizlik, gender rolları, sosial dəstəyin zəifliyi) əksidir. Hər bir zorakılıq halı susulduqda, gələcək nəsillərə də travma ötürülür".

**Fidan Həmişəyeva**

**Elan**

"PORT UNİT" Məhud Məsuliyyətli Cəmiyyətinin (VÖEN 1703791961) möhürü itdiyi üçün etibarsız sayılır.



# Nasaz və köhnəlmiş naqillərin istifadəsi qəbuledilməzdir

## Təhlükəsizlik qaydalarının pozulması cərəyan vurması və ya yanğın riski ilə nəticələnə bilər

**Bərdədə bədbəxt hadisə baş verib. Rayonun Mollalı kəndində 1964-cü il təvəllüdlü Fehruz Salahovu elektrik cərəyanı vurması nəticəsində ölüb.**

Məlumata görə, hadisə elektrik naqili ilə ehtiyatsız davranma nəticəsində baş verib.

**Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev "Şərq"ə bildirdi ki, elektrik təsərrüfatında təmir, texniki xidmət və ya yerdəyişmə işləri yalnız bu sahədə ixtisaslaşmış müəssisələr tərəfindən həyata keçirilməlidir:** "

Bu işləri yerinə yetirən şəxslər mütləq ixtisaslı mütəxəssislər olmalı, sırf təcrübə və ya şəxsi bilik əsasında müdaxiləyə yol verilməməlidir. Elektrik təsərrüfatında təhlükəsizlik qaydalarının pozulması bədbəxt hadisələrin baş verməsinə səbəb ola bilər. Buna görə təhlükəsizlik tələblərinə ciddi şəkildə əməl olunmalıdır. İstifadəyə yararsız və nasaz elektrik şəbəkələrindən istifadə edilməməli, nasazlıqlar aradan qaldırıldıqdan sonra şəbəkə yenidən istismara verilməlidir. Təhlükəsizlik qaydalarının pozulması cərəyan vurması və ya yanğın riski ilə nəticələnə bilər. Məişət şəraitində də elektrik təsərrüfatının texniki cəhətdən saz vəziyyətdə saxlanılması mühüm əhəmiyyət kəsb edir. Bütün baxış və diaqnostika tədbirləri ixtisaslaşmış müəssisə tərəfindən aparılmalı, aşkar olunan nasazlıqlar operativ şəkildə aradan qaldırılmalıdır. Elektrik şəbəkəsinin normadan artıq yüklənməsinin qarşısı alınmalı və yalnız keyfiyyətli naqillərdən istifadə edilməlidir. Nasaz və köhnəlmiş naqillərin istifadəsi qəbuledilməzdir".

**Fidan**

# Professor xəbərdarlıq etdi

## Dəniz suyunun insan sağlamlığı üçün müəyyən riskləri mövcuddur

**"Uşağın açıq su hövzələrində çimməsi bir çox infeksiyaya yoluxma və hipotermiya ilə nəticələnə bilər".**



Oxu.Az xəbər verir ki, bunu Lenta.ru-ya Rusiya Dövlət Maarif Universitetinin Tibb fakültəsinin Uşaq Xəstəlikləri kafedrasının dosenti Aleksandr Batrakov deyib.

Həkim südəmər və ya məktəbəqədər yaşda olan uşağın su hövzəsində çimməsinin körpələrin sağlamlığı üçün təhlükəli olduğu barədə xəbərdarlıq edib:

"Bu yaşda immunitet sistemi hələ də inkişaf edir və tam qorunma təmin etmir, buna görə də açıq su hövzəsində üzməyi 2-3 yaşa qədər təxirə salmaq daha yaxşıdır".

Batrakov vurğulayıb ki, südəmər uşaq rotavirus infeksiyası ilə yoluxa bilər: "Ona görə də çimərliyə getməzdən əvvəl bir yaşa qədər uşaqları rotavirus infeksiyasına qarşı peyvənd etmək daha yaxşı olardı".

Mütəxəssis əlavə edib ki, körpələr qumun dadına tez-tez baxdıqları üçün çimərlikdə onlara ciddi nəzarət edilməlidir. Həkim qeyd edib ki, qum tənəffüs yollarına daxil olduqda aspirasiya riski yaradır və boğulma ilə nəticələnə bilər.

**Professor Adil Qeybulla "Şərq"ə açıqlamasında deyib ki, dəniz suyu şirin sudan fərqli olaraq duzlu olur:**

"Duzlu mühitdə bir sıra infeksion agentlər, eləcə də uzun müddət dənizdə qalmış heyvan qalıqları yaşama qabiliyyətini itirir. Bununla belə, dəniz suyunun insan sağlamlığı üçün müəyyən riskləri mövcuddur. Əsas təhlükələrdən biri dəniz suyunun müxtəlif bakteriyalara davamlı olması, həmçinin neft məhsullarının qalıqları və sənaye axıntıları ilə çirklənməsidir ki, bu da insan orqanizminə zərərli təsir göstərə bilir. Eyni zamanda, dənizdə baş verən ştormlar və güclü dalğalanmalar da təhlükə yarada bilər. Son dövrlərdə dənizdə boğulma hallarında artım müşahidə olunur. Bunun mümkün səbəblərindən biri də dənizdə yaranmış yarğanlar və çatların mövcudluğudur. Bundan əlavə, dəniz mühitində insanlar üçün potensial təhlükə yarada biləcək canlılar, dəniz ilanları, meduzalar və dəniz kirpiləri ola bilər. Xəzər dənizi üzrə meduza və zəhərli dəniz ilanlarının mövcudluğu barədə məlumat yoxdur, lakin burada suitilərin yaşadığı məlumdur. Bu səbəbdən çimərlik zonaları müəyyən edilməli və onlara sanitar-gigiyenik nəzarət gücləndirilməlidir. Təəssüf edirəm ki, hazırda bir çox çimərlik əraziləri zəbt olunub. Bu əraziləri zəbt edən şəxslər müvafiq dövlət qurumları ilə bağlanmış müqavilələrə əsasən həmin sahələri vaxtaşırı təmizləməli, dəniz suyunun və dibinin tərkibini yoxlamalıdırlar ki, çimənlər üçün sağlamlıq baxımından hər hansı təhlükə yaranmasın. Digər mühüm məsələ uşaqların təhlükəsizliyidir. 14 yaşına qədər uşaqların mütləq müşayiət altında dənizə girməsi təmin olunmalı, onların tək çimməsinə yol verilməməlidir, çünki boğulma riski bu yaş qrupunda daha yüksəkdir".

**Fidan Həmişəyeva**

Təsisçi: "Şərq Media Qrup" MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova,
İsmayıl Qocayev, Nihat Müzəffər,
Şəhanə Ziyad, Aynur Babazadə,
Fidan Həmişəyeva, Yusif Sultanoğlu

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev,
İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

"Şərq Media Qrup" MMC-yə daxildir:
"Şərq" qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti,
"Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 1609



## Tibb bacısı ehtiyatsızlıqla körpənin baş barmağını kəsib

Atası məsul şəxslər haqqında araşdırma aparılmasını tələb edir



**Türkiyənin Adıyaman bölgəsində yüksək hərarət şikayəti ilə xəstəxanaya yerləşdirilən 3 aylıq körpənin əlinə taxılan serumu çıxarmaq istəyən tibb bacısı, ehtiyatsızlıqla körpənin baş barmağını kəsib.**

Sherg.az xəbər verir ki, hadisə Kahta dövlət xəstəxanasında baş verib. İddialara görə, H.S. Doğan adlı körpəyə serum verildikdən sonra, serumu çıxarmaq üçün otağa daxil olan tibb bacısı, makasla serum iynəsini kəsərkən körpənin sağ baş barmağını da kəsib. Barmaq qan içində qalarkən anası şok keçirib və huşunu itirib.

Xəstəxanada plastik cərrah olmadığı üçün körpə ilkin müdaxilədən sonra Gaziantepə göndərilib. Orada keçirilən iki cərrahi əməliyyatla kəsilən barmaq yerinə tikilib. Uzunmüddətli müalicə prosesi başlayıb.

Körpənin atası Abdülhakim Doğan məsələ ilə bağlı hüquqi addımlar atacaqlarını, məsul şəxslər haqqında cinayət və inzibati araşdırma aparılmasını tələb etdiklərini bildirib.

Hadisə ilə bağlı araşdırma başlanılıb.

## İllərlə allergiya zənn etdi

Demə, burnundan axan beyin mayesi imiş



**İzmirin Menderes bölgəsində yaşayan 50 yaşlı Özlem Akçay, illərlə allergiya zənn etdiyi burun axıntısının, əslində, beyin-omurilik mayesi sızması olduğunu öyrənib.**

"Şərq" xəbər verir ki, ciddi vəziyyət diş müalicəsi zamanı aparılan müayinələr nəticəsində ortaya çıxıb.

Beyin tomoqrafiyasında sfenoid sinüsə beyin toxumasının sarkması və həmin nahiyədən beyin mayesinin axması müşahidə olunub. Bu hal menengit kimi həyati təhlükəli infeksiyalara səbəb ola biləcəyindən, endoskopik üsulla təcili əməliyyat aparılıb. Əməliyyatdan sonra Akçayın burun axıntısı tamamilə dayanıb.

Özlem Akçay: "Əvvəlcə allergiya sandım, amma sonradan beyin mayesi olduğunu öyrənəndə çox təəccübləndim. İndi özümü çox yaxşı hiss edirəm," - deyə bildirib.

## 2 həftə şarjda saxladı

Elektrikli avtomobili sıradan çıxdı



**"Tesla"nın "Cybertruck" modeli, uzun müddət şarjda qaldıqdan sonra işləməz hala gəlib. Şirkət texnikləri avtomobili detallı yoxlama üçün servis mərkəzinə aparıblar.**

"Şərq" xəbər verir ki, "Tesla Cybertruck" sahibi AJ Esguerra, uzun tətil müddətində avtomobilini şarjda saxlayıb. Evə döndükdə isə avtomobilin işə düşmədiyini görüb. Esguerra "Tesla"ya müraciət edərək bu mesajı paylaşıb: "Köməyə ehtiyacım var. 2 həftə tətildəydik və yeni qayıtdıq, amma "Cybertruck" heç açılmır. Tətbiqimə baxdım və son olaraq 11 gün əvvəl əlaqə qurulduğunu göstərir".

Arizona ştatındakı rekord səviyyəli isti hava şəraitinin daimi şarjda qalan avtomobilə təsir etdiyini düşünən Esguerra, "Tesla" texniklərini çağırıb. Texniklər avtomobili işə salıb və daha geniş texniki analiz üçün servis mərkəzinə aparıblar.

Servis mərkəzində aparılan yoxlamalar nəticəsində məlum olub ki, "Cybertruck"in işləməməsinə səbəb enerji çeviricisindəki nasazlıq olub.

## İstilərlə zarafat etməyin!

Günvurma sağlam insanlarda da infarkta və beyin qanamasına səbəb olur





**Havanın həddindən artıq istiləşdiyi son günlərdə mütəxəssislər günvurma təhlükəsinə qarşı əhaliyə ciddi xəbərdarlıq ediblər. Onlar bildiriblər ki, yüksək temperatur təkcə xəstələr deyil, sağlam insanlar üçün də beyin qanaması və infarkt kimi həyati risklər yarada bilər.**

"Şərq" mütəxəssislərə istinadən vurğulayır ki, bədəndə su itkisi artdıqca elektrolit balansı pozulur, bu isə ürək-damar sisteminə mənfi təsir göstərir. Ona görə də gündə ən azı 2-2,5 litr su içilməsi tövsiyə olunur, əgər maye məhdudiyyəti tələb edən bir xəstəlik yoxdursa. Xüsusilə saat 11:00-16:00 arası birbaşa günəş altında olmaqdan çəkinmək lazımdır. Çölə çıxanlar isə kölgədə qalmalı, şapka taxmalı, əl, üz, boyun və qollarını su ilə tez-tez islatmalıdırlar. Evə dönəndə isə ılıq duş bədənin istiliyini tənzimləməyə kömək edir. Hipertoniya, şəkərli diabet və ürək xəstəliyi olan şəxslər üçün bu cür istilər daha böyük təhlükə yaradır. Mütəxəssislər belə şəxslərin sıx nəzarət altında olması və günəşə məruz qalmamaq üçün tədbirlər görmələrinin lazım olduğunu bildirirlər.



# 40 metrdən yıxıldı, 8 saatda tapıldı



Ginnesin rekorduna doğru addımlayır, əlil arabası ilə 422 şəhər gəzib

**Önder Yurdagül 10 yaşında futbolçu olmağı arzulayıb. Lakin 40 metrdən yıxılıb və ağır yaralanıb. Düz 8 saatdan sonra tapılıb. Uzun müalicədən sonra əlil arabası istifadə etməyə başlayıb. "Şərq" 67 ölkə, 422 şəhər gəzmiş və nadir rekordlar qıran Önderlə sizi tanış edir.**

1989-cu ildə Antalyada doğulan Önder, məktəbdə futbol oynayarkən 40 metr hündürlükdən yıxılır. 7-8 saat sonra tapılır. Həmin dövrdə texnoloji və sosial şərait çətin idi, əməliyyat gecikdi. Təxminən 2-2,5 il yataqda qaldı. Fiziki terapiyada həkimlər ona bir daha yeriyə bilməyəcəyini söyləyib. Bu onun üçün ən ağır anlarından biri idi. Önder söyləyir ki, o yaşda futbolçu olmaq, ailəsini xilas etmək arzusu birdən əlindən alındı. Yataqdan qalxa bilmirdi, həyatında ən böyük travmalardan biri budur. Ancaq buna baxmayaraq, Allaha inandı, müsbət enerjidə qalmağa çalışdı və nə olursa, olsun davam etdi. Liseydə əlil arabası basketboluna başlayır, milli komandaya seçilir. Bədən tərbiyəsi oxumaq istəyirdi, amma əlilliyi ağır olduğundan qəbul olunmadı. Yalnız milli idmançı kontingenti ilə 2009-da Akdeniz Universitetinə daxil oldu. Eyni zamanda işləyirdi, turizm sektorunda çalışdı, 2014-də Aksarayda idman mütəxəssisi kimi işə başladı. Türkiyənin ilk əlil idman mütəxəssisi oldu. Önder xarici səfərlərdə əlil arabası ilə gəzintinin çətin, amma zövqlü olduğunu anlayır. Ginnesin Rekordlar Kitabına düşmək üçün yola çıxıb. Məqsəd yalnız özünü göstərmək yox, eyni zamanda əlil araba istifadəçilərinə nümunə olmaqdır. İndi həyat yoldaşı ilə birlikdə səfərlərini davam etdirir. Səyahət yerlərini iqtisadi şərtlərə uyğun seçir və izləyicilərinə real, dürüst məlumat verir. Çətinlikləri gizlətmir, yalan reklam etmir. Önder deyir ki, xaricdə insanlar onu fərqli qəbul edir. Amma Türkiyədə bəzən acımasız baxışlarla qarşılaşır. Sosial həyatda əngəllilərin inteqrasiyası vacibdir. O, digər əlillərə də motivasiya verir, suallarına cavab verir. Önder vurğulayır ki, ailələr bəzən əlillərin yük olduğunu düşünür. Amma sosial həyatın içində olduqda şəxsi bacarıqlar artır. Kiçik yaşdan ətraf mühit əlilliyə alışmalıdır ki, gələcəkdə bu cür problemlər azalsın. Məqsədi yalnız özünün uğurunu göstərmək deyil, həm də əngəlli insanlara motivasiya vermək, onların sosial həyatda daha aktiv olmalarına kömək etməkdir. Önder sosial mediada öz təcrübələrini paylaşır, əngəlli dostlarına və onların ailələrinə məsləhətlər verir. O, əngəlli olmaqdan qorxmaq yox, həyatın imkanlarını görmək və onlardan yararlanmaq lazım olduğunu vurğulayır. Həyatında bir çox çətinliklərə baxmayaraq, uçmaq, üzmək və səyahət etmək kimi sahələrdə tam azad olduğunu hiss edir. İnsanların onu acımaqla yox, etdiyi işlərlə qiymətləndirməsini istəyir. Bu, Önder Yurdagülün 40 metrdən yıxılıb əlil qaldıqdan sonra həyatda qalmaq, idmanda uğur qazanmaq və təkərli araba ilə dünyanı gəzmək hekayəsidir.

**Turan**





# Dəyərsiz olmayın!

Psixologiyaya görə sizi daha az cəlbedici göstərən 6 amil açıqlanıb

**Psixoloji tədqiqatlar göstərir ki, sosial cazibəmizə təsir edən bir sıra gizli faktorlar mövcuddur. "Şərq" xaricdə aparılan tədqiqatlara əsasən cazibəni azaldan bəzi amilləri təqdim edir:**

**1. Yuxusuzluq**

İsveç və Niderlandda aparılan araşdırmalar göstərib ki, yuxusuz insanlar daha yorğun, sağlam olmayan və nəticə etibarilə daha az cəlbedici görünürlər. Solğun dəri, gözaltı qara dairələr və sallanmış göz qapaqları yuxusuzluğun əsas əlamətlərindəndir. Gecə 8 saat yatan şəxslər, 31 saat yuxusuz qalanlara nisbətən daha cazibədar hesab olunurlar. Keyfiyyətli yuxu həm əhvali-ruhiyyəni yaxşılaşdırır, həm də insanda enerjili və sağlam təəssürat yaradır.

**2. Mənfi xarakter xüsusiyyətləri**

"Psychologs.com" saytının xəbərinə görə, fiziki görünüş nə qədər yaxşı olsa da, pis xarakterə sahib insan cazibədarlığını əhəmiyyətli dərəcədə itirə bilər.

Çində 2014-cü ildə aparılan bir tədqiqatda kobud, paxıl və ya pis niyyətli kimi təsvir olunan insanlar, neytral görünüşə malik olsalar belə, daha az cəlbedici qəbul olunublar. Əvəzində nəzakətli, dürüst və empatiya göstərən şəxslər daha etibarlı və cəlbedici sayılıb.

**3. Zəif bədən dili**

Bədən dili - sözsüz ünsiyyətin ən güclü vasitələrindən biridir. Stenford Universitetinin tədqiqatlarına görə, qolları açıq, dik duran və özündən əmin görünən şəxslər daha cazibədar hesab olunur. Əksinə, çiyinləri aşağı salmaq, qolları sinədə birləşdirmək və ya qaməti əymək özgüvən əksikliyi və soyuqluq təəssüratı yaradır.

**4. Yüksək stress səviyyəsi**

Finlandiya, Estoniya və Cənubi Afrikada aparılan bir tədqiqat göstərib ki, yüksək səviyyədə stress hormonu (kortizol) olan qadınlar kişilər tərəfindən daha az cəlbedici görülürlər. Stress insanın üz ifadəsinə, dərisinin vəziyyətinə və ümumi enerjisinə birbaşa təsir göstərir.

**5. Zəif yumor hissi**

San-Dieqodakı Kaliforniya Universitetinin araşdırmalarına əsasən, zəif yumor hissinə malik olan insanlar daha az cazibədar hesab olunur. Birgə gülmək münasibət qurmağı asanlaşdırır, həyatı daha xoş və rahat edir.

**6. Yalan danışmaq**

Kanadadakı Vestern Ontario Universitetində aparılan tədqiqat göstərib ki, insanlar ən çox dürüst insanlara qarşı cazibə hiss edirlər. Mütəxəssislər bildirirlər ki, kiçik yalanlar belə bir insanın imicinə zərər verir.

**Digər cazibədarlıq amilləri**

Cazibəni azaldan başqa faktorlar arasında şəxsi gigiyena vərdişləri də yer alır. Araşdırmalara görə, bu amillər hətta genetik səviyyədə partnyor seçiminə təsir edir.

2006-cı ildə Nyu-Meksiko Universitetində aparılan bir təhlildə məlum olub ki, immun sistemləri bir-birinə çox bənzəyən cütlüklər həm bir-birilərinə daha az maraq göstərir, həm də xəyanət riski daha yüksək olur. Bundan əlavə, çox fərqli bədən qoxuları da itici olur. Qısası, şəxsi təmizlik və ümumi bədən kimyası birbaşa cazibəyə təsir edir.

Psixoloji olaraq diqqət edilməli başqa bir məqam da maddə istifadəsidir. 2016-cı ildə Belçikada aparılan bir tədqiqatda, çox siqaret çəkən kişilərin uzunmüddətli münasibətlərdə daha az cəlbedici qəbul edildiyi göstərilib.

Ara-sıra spirtli içki qəbul edən insanlar isə həm heç içməyənlərdən, həm də daima içki içənlərdən daha cazibədar görünür. Həddən artıq və sağlam olmayan vərdişlər adətən pis qərarlarla və aşağı həyat keyfiyyəti ilə əlaqələndirilir.

**Turan**

## Kədər insanı öldürə bilər

Geniş əks-səda doğuran araşdırmada 2 minə yaxın insan tədqiq edilib

**Danimarkada aparılan yeni bir araşdırma göstərib ki, "intensiv şəkildə yaşanan yas hissi" erkən ölümə səbəb olur.**

"Şərq" xəbər verir ki, "Daily Mail"də dərc olunan və geniş əks-səda doğuran araşdırmada yaş ortalaması 62 olan 2 minə yaxın yas içində olan insan tədqiq edilib. Tədqiqatçılar yasın intensivliyi ilə ölüm riski arasındakı əlaqəni analiz ediblər.

İştirakçıların yas səviyyəsi elmi qiymətləndirmə aləti olan "Prolonged Grief-13" (Uzunmüddətli Yas-13) şkalası ilə ölçülüb. Nəticələrə əsasən, intensiv yas simptomları göstərən şəxslərdə on il ərzində erkən ölüm riski, aşağı səviyyədə yas yaşayanlarla müqayisədə iki dəfə yüksək olub.

Tədqiqatçılar yüksək səviyyəli yasın nəyə görə erkən ölümə səbəb olduğunu dəqiq bilmir. Lakin Dr. Mette Kjrgaard Nielsen bildirib ki, intensiv yas



yaşayan şəxslərdə ürək-damar xəstəlikləri, psixoloji problemlər və intihar hallarında artım müşahidə olunub. Araşdırma 2012-ci ildə başlayıb və iştirakçılar 10 il ərzində izlənilib. Tədqiqatın sonunda insanların yas prosesini necə yaşadıqlarına əsasən beş fərqli "yas prosesi tipi" müəyyən edilib: Ən geniş yayılmış qrup iştirakçıların 38 faizini təşkil edib və bu insanlar aşağı səviyyədə yas əlamətləri ilə davam ediblər. Təxminən 20 faiz iştirakçı əvvəlcə yüksək, sonra isə azalan yas reaksiyaları göstərib. 29 faizlik bir qrup isə orta səviyyədə başlayıb və zamanla zəifləyən yas prosesi yaşayıb. 9 faizlik bir qrupda isə yas əlamətləri əvvəlcə aşağı səviyyədə olub, altıncı ayda zirvəyə çatıb, sonra azalıb. Ən azsaylı qrup olan 6 faiz isə "intensiv və davamlı yas" yaşamış və erkən ölüm baxımından ən yüksək risk altında olanlar olub. Əvvəlki araşdırmalarda da intensiv yasın ürək sağlamlığına təsirinə diqqət çəkilmişdi. Tibb dilində "takotsubo kardiyomiyopatiyası" adlanan və "Qırıq Qəlb Sindromu" kimi tanınan bu vəziyyət, qəfil stress hormonlarının ürəkdə müvəqqəti böyüməyə səbəb olması ilə meydana çıxır.

Hər il təxminən 2.500 nəfəri təsirləndirən bu sindrom, ürəyin qan pompalama funksiyasını müvəqqəti pozur və infarktla oxşar əlamətlər göstərir. Lakin infarktdan fərqli olaraq, bu vəziyyətdə damar tıxanması olmur. Bu oxşarlığa görə bəzi xəstələr səhvən infarkt diaqnozu alır və uyğun müalicə ilə təmin olunmur. Şotlandiya Aberdin Universitetində aparılan beş illik tədqiqatda təxminən 4 min xəstə üzərində araşdırma aparılıb. Nəticələr göstərib ki, bu sindroma sahib xəstələrin dörddə biri həyatını itirib. Həmçinin, infarktın qarşısını almaq üçün verilən dərmanların takotsubo kardiyomiyopatiyası üzərində təsirli olmadığı da müəyyən edilib.

**Hazırladı: Turan**